DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 05 (355) / MAY 2021-Cİ İL



Mən artıq göstəriş vermişəm ki, bizim təhsil proqramlarımızda, məktəblərdə və ali məktəblərdə, universitetlərdə tarix dərsliklərinə İkinci Qarabağ müharibəsi mövzusu mütləq salınsın. İndi bizim müvafiq qurumlar, o cümlədən Təhsil Nazirliyi bu məsələ üzərində çalışır ki, bizim bu şanlı tariximiz dəqiqliklə öyrənilsin. Çünki beynəlxalq mətbuatda bu günə qədər İkinci Qarabağ müharibəsi ilə bağlı yanlış və təhrif edilmiş məlumat dərc edilir. Ona görə real həqiqətləri, həqiqətə əsaslanmış bu tarixi biz həm öz vətəndaşlarımıza, həm də dünyaya çatdırmalıyıq. Ümid edirəm ki, Türkiyənin tarix dərsliklərində də bu məsələ öz əksini tapacaq. Xüsusilə, nəzərə alsaq ki, Türkiyə müharibənin ilk saatlarından Azərbaycana çox böyük siyasi və mənəvi dəstək göstərmişdir. Əziz Qardaşım, Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk dəqiqələrdən, ilk saatlardan bəyanatlarla çıxış etmiş və demişdir ki, Türkiyə Azərbaycanın yanındadır. Bunun çox böyük mənəvi və siyasi əhəmiyyəti olmuşdur. Azərbaycan 44 gün ərzində ədaləti, öz ərazi bütövlüyünü bərpa etdi və 30 illik işğala son qoyuldu.

Ona görə bizim gənc nəslimiz, əlbəttə ki, tarixi olduğu kimi bilməlidir. Mən oxuduğum dövrdə biz təhrif edilmiş tarixi öyrənirdik. Azərbaycan xalqının qanını axıdan daşnak-bolşevik bandalarının rəhbərləri qəhrəman kimi təqdim edilirdi. Mən məktəbdə və ali məktəbdə oxuyarkən bu kitablar, bu saxta tarix kitabları əsasında oxumuşam. Biz müstəqilliyə qovuşandan sonra real tarixi bildik. Qəhrəmanlar düşmən kimi göstərilirdi, düşmənlər qəhrəman kimi. Ona görə biz - sovetlər birliyində yaşamış insanlar, - sovetlər birliyi dağılanda mənim 30 yaşım var idi, bütün təhsilimi bitirmişdim, - ondan sonra öyrəndim ki, bizə nə qədər ziyanlı və saxta tarix təqdim edilirmiş. Ona görə indiki şəraitdə biz həm qədim tariximizi, eyni zamanda, müasir tariximizi olduğu kimi təqdim etməliyik və bu sahədə bərabər çalışacağıq.

**Prezident İlham Əliyev**
Türkiyənin milli təhsil nazirini qəbuldakı nitqindən
*Bakı, 27 may 2021-ci il*

## MÜDAFİƏ NAZİRLİYİ: ERMƏNİSTAN TƏRƏFİ DÖVLƏT SƏRHƏDİNİN KƏLBƏCƏR RAYONU İSTİQAMƏTİNDƏ TƏXRİBATA ƏL ATIB

Mayın 27-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu sahəsində Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qruplarının fəaliyyəti ilə bağlı daxil olan əməliyyat məlumatına əsasən, diversiya qrupları saat 03:00 radələrində dövlət sərhədimizi keçib və ərazilərimizin daxilində minalama işlərini və digər təxribat əməllərini aparmağa cəhd göstərib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ilkin məlumata görə, qarşı tərəfin iki kəşfiyyat-diversiya qrupu dövlət sərhədimizi iki istiqamətdə keçib. Qrupların biri 9, digəri isə 15 hərbi qulluqçudan ibarət olub. Kəşfiyyat-diversiya qruplarının hərəkəti nəzarətə götürülüb. Ərazimizdəki təminat və digər keçid yollarında minalama fəaliyyəti həyata keçirərkən Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin hər iki qrupuna qarşı dərhal əməliyyat tədbirləri görülüb.

Nəticədə düşmənin birinci kəşfiyyat-diversiya qrupundan 1-i zabit olmaqla 4, digərindən isə 2 hərbi qulluqçu, ümumilikdə 6 nəfər tərk-silah edilərək saxlanılıb. Kəşfiyyat-diversiya qrupunun saxlanıldığı ərazinin coğrafi koordinatları: 40 dərəcə 09 dəqiqə 06 saniyə şimal enliyi, 45 dərəcə 58 dəqiqə 07 saniyə şərq uzunluğu (N 40°09′06″; E 45°58′07″).

Digər erməni hərbi qulluqçuları ərazimizi dərhal tərk edərək geriyə çəkiliblər.

Bundan başqa, səhər saatlarında sərhəd yaxınlığında Ermənistan silahlı qüvvələrinin tankları da daxil olmaqla, bir neçə döyüş texnikasının cəmləşməsi müşahidə edilib. Tərəfimizdən görülən tədbirlər nəticəsində onların hərəkətinin qarşısı alınıb.

* * *

Ermənistan tərəfi mayın 27-si saat 03.00 radələrində Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu sahəsində kəşfiyyat-diversiya qruplarının törətdiyi təxribatları ört-basdır etmək məqsədilə həmişə olduğu kimi yenə də yalan məlumat yayıb.

Bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov AZƏRTAC-a açıqlamasında deyib.

A.Eyvazov bildirib ki, Ermənistan əsgərləri Kəlbəcər rayonunun Yuxarı Ayrım kəndi ərazisində tərk-silah olunublar. Eyni zamanda, tank birləşmələri daxil olmaqla ön xəttə qüvvələri konsentrasiya ediblər.

Sərhədimizi keçərək ərazimiz daxilində mina işlərini aparmağa və təxribat əməllərini törətməyə cəhd göstərən diversiya qrupunu ermənilər guya mühəndis-istehkamçılar kimi qələmə verir. Əgər elədirsə, o zaman erməni hərbi mühəndisləri Azərbaycan ərazisində nə kimi mühəndis işləri görə bilər?

Hərb işindən azacıq xəbəri olan hər bir kəs anlayır ki, kiçik qruplarla mühəndis işləri həyata keçirilmir. Bu tərkibdə qruplar kəşfiyyat-diversiya dəstələrində olur və aydındır ki, onlar məhz təxribat törətmək məqsədilə ərazimizə keçiblər. Onların məqsədi sərhəddə xidmət edən qüvvələrimizin arxasına keçərək təminat yolunu minalamaq olmuşdur. Belə ki, təminat yolundan istifadə edən qüvvələr minaya düşsünlər və şəxsi heyət arasında itkilər olsun.

# PREZİDENT İLHAM ƏLİYEV ŞUŞADA YUXARI GÖVHƏRAĞA MƏSCİDİNDƏ OLUB

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mayın 13-də Şuşada Yuxarı Gövhərağa məscidində olublar.*

*Dövlətimizin başçısına və birinci xanıma məsciddə aparılan bərpa işləri ilə bağlı məlumat verilib.*

*Bildirilib ki, burada bərpa işləri Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. 1768-1769-cu illərdə inşa edilən bu məscid də işğal dövründə erməni vandalizminin qurbanı olmuşdu.*



# PREZİDENT İLHAM ƏLİYEV ŞUŞADA YENİ MƏSCİDİN TƏMƏLİNİ QOYUB




Mayın 12-də Şuşada yeni məscidin təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva tədbirdə iştirak ediblər.

Qədim Şuşada təməli qoyulan məscid dini ocaq və modern memarlıq nümunəsi kimi göz oxşayacaq. İki minarəli, mozaika ilə bəzədiləcək gümbəzi olan məscidin layihələndirilməsi azərbaycanlı və italyan memarlarla birgə həyata keçirilib. Məscidin xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Bu memarlıq elementi Şuşanın firavan və uğurlu gələcəyinə əminliyi, keçmişlə bu gün arasındakı əlaqəni təcəssüm etdirəcək.

Məscidin təməlini qoyan Prezident İlham Əliyev çıxış edərək deyib:

- Bu gün Şuşa şəhərində yeni məscidin təməlini qoyduq. Şuşada yeni məscid tikiləcəkdir. Məscidin tikintisi ilə bağlı qərarı mən çoxdan vermişdim. Şuşa şəhəri işğalçılardan azad olunandan sonra artıq bu məscidin memarlığı barədə düşünməyə başlamışdım. Nəzərə alsaq ki, Şuşa şəhərində vaxtilə 17 məscid olub və mənfur düşmən onların hamısını dağıdıb. Üç məscid yarıdağılmış vəziyyətdə idi - Yuxarı və Aşağı Gövhərağa və Saatlı məscidləri. Onların da təmiri ilə bağlı göstəriş verilib.

Yuxarı Gövhərağa məscidi artıq təmirdən çıxıb. Nəzərə alsaq ki, Şuşa memarlığının öz xüsusiyyətləri vardır və Şuşada vaxtilə inşa edilmiş məscidlər bir üslubda tikilmişdir. Ona görə fikirləşirdim ki, yeni tikiləcək məscidin memarlığı necə olmalıdır. Demək olar ki, bir neçə ay bu haqda fikirləşirdim. Nəhayət bir fikir ağlıma gəldi ki, bu məscid, bunun memarlığı rəmzi xarakter daşımalıdır. Ona görə təklif etdim ki, məscidin forması 8 rəqəmini əks etdirməlidir. Çünki noyabrın 8-də biz Şuşanı işğalçılardan azad etdik və 8 noyabr Azərbaycanda artıq rəsmi olaraq Zəfər Günüdür. Məscidin iki minarəsi 11 rəqəmini əks etdirməlidir. Onbirinci ayda Şuşa və Qarabağ tam işğaldan azad edildi. Bu fikirlər əsasında memarlar işləməyə başlamışlar və burada göstərilən təqdimatda məscidin görkəmi öz əksini tapır. Bu, ilkin versiyadır, bunun üzərində hələ iş aparılacaq, müəyyən dəyişikliklər ola bilər.

Əlbəttə ki, məscidin daxili dizaynı ilə bağlı təkliflər hələ tam hazır deyil. Ancaq konseptual olaraq məscidin memarlığı 8 noyabr gününü əks etdirəcək. Həm yuxarıdan baxanda 8 rəqəmini görmək mümkün olacaqdır, həm də aşağıdan baxanda. Məscidin yeri də təsadüfən seçilmədi. Bu, Şuşa şəhərinin yuxarı hissəsidir və burada ucaldılacaq məscid şəhərə bir dominant kimi hakim olacaqdır. Belə də olmalıdır. Çünki Şuşa bizim qədim şəhərimizdir, Azərbaycan şəhəridir, azərbaycanlılar tərəfindən salınıb. Azərbaycanlılar həmişə burada yaşayıb. Sadəcə olaraq, işğal dövründə Azərbaycan əhalisi zorla buradan çıxarılmışdı.

Biz Şuşaya qayıtmışıq, əbədi qayıtmışıq! Şəhərə hakim olan bina məscid binası olmalıdır və bu bina şəhərin yuxarı hissəsində yerləşməlidir. Məscidin təməlqoyma günü də təsadüfən seçilmədi. Sabah bütün müsəlman aləmi müqəddəs Ramazan bayramını qeyd edəcək. Fürsətdən istifadə edərək, bütün Azərbaycan xalqını bu mübarək Ramazan bayramı münasibətilə təbrik etmək istəyirəm. Məhz bayram ərəfəsində qədim Şuşa şəhərində yeni məscidin təməlqoyma mərasiminin keçirilməsi böyük tarixi və rəmzi xarakter daşıyır. Bundan sonra artıq memarlar məscidin bütün layihəsi ilə ciddi məşğul olacaqlar və inşaat işləri başlanacaq.

# PREZİDENT İLHAM ƏLİYEV MÜQƏDDƏS YELİSEY ADINA COTARİ VƏ MÜQƏDDƏS MƏRYƏM ANA ALBAN KİLSƏLƏRİNDƏ OLUB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva mayın 15-də Qəbələnin Nic qəsəbəsində 1 saylı orta məktəbdə və Müqəddəs Yelisey adına Cotari kilsəsində olublar.

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva əvvəlcə Nic qəsəbəsindəki 1 saylı orta məktəbə gəliblər.

Məlumat verilib ki, 1857-ci ildə inşa edilən bu məktəbdə hazırda 135 şagird təhsil alır.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Müqəddəs Yelisey adına Cotari kilsəsində oldular, burada şam yandırıblar.

Bildirildi ki, Nic qəsəbəsindəki bu kilsə də Heydər Əliyev Fondu tərəfindən 2006-cı ildə əsaslı bərpa olunaraq Alban-Udi Xristian dini icmasının istifadəsinə verilib. Müqəddəs Yelisey kilsəsi 1823-cü ildə tikilib.



Tolerantlığın kiçik modeli olan Nic qəsəbəsində hazırda 3 kilsə, 2 məscid var. Dünyadakı 10 minə yaxın udinin 4 minə yaxını Qəbələnin Nic qəsəbəsində yaşayır.

- Bu, bizim kilsənin, alban kilsələrinin simvoludur.

**Prezident İlham Əliyev:** O, xaçın təsviridir?

- Bəli, cənab Prezident, səkkizlik. Bizdə müqəddəs olan səkkiz dənə xaçdır, on iki dənə apostol səkkizlik. Biz bunu Tuğda da gördük.

Burada xatirə şəkilləri çəkdirildi.

- Çox sağ olun, Allah Sizi qorusun. Sizin dəstəyinizi hər yerdə görürük, bu, bizim üçün çox xoşdur.

**Prezident İlham Əliyev:** Çox sağ olun, həmişə sizinlə birlikdə olacağam.

- Tez-tez gedəcəyik Qarabağ bölgəsinə. Biz də Allahın köməyi ilə bu mühiti saxlayacağıq.

**Birinci xanım Mehriban Əliyeva:** Sağ olun.

**Leyla Əliyeva:** Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

* * *

Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qəbələnin Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsində olublar.

Dövlətimizin başçısına və birinci xanıma kilsədə görülən işlər barədə məlumat verilib:

- Müqəddəs Məryəm Ana kilsəsi 2019-cu ildə Heydər Əliyev Fondu tərəfindən bərpa olunmağa başlanmış və 2020-ci ilin noyabr ayında 44 günlük müharibə zamanı bərpa işləri başa çatdırılmışdır. Buyurun, ilkin vəziyyəti ilə tanış ola bilərsiniz.



**Prezident İlham Əliyev:** Bu vəziyyətdə idi?

- Bəli.

**Prezident İlham Əliyev:** Günbəzi də yox idi, uçmuşdu.

- Bəli, uçmuşdu. Yenidənqurma zamanı tikilinin 50 faizə yaxın kərpicləri, daşları bərpa olunmuşdur.

**Prezident İlham Əliyev:** Salam.

- Bizim əziz Prezidentimiz, xoş gəlmisiniz. Məryəm Ana Kilsəsinə xoş gəlmisiniz. Allah Sizi qorusun, Allah Azərbaycanı qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

- Həmçinin həyətyanı sahə abadlaşdırılmış, sahəsi hasarlanmış, bulaq və üç gölməçə yaradılmışdır.

**Prezident İlham Əliyev:** Bulaq haradadır? Burdadır?

- Bəli.

**Prezident İlham Əliyev:** Salam.

- Salam, xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun.

- Kilsənin tavanı, döşəməsi dəyişdirilmişdir. Kilsənin aşağı hissəsi XII əsrdə tikilmişdir, Siz onların dağıntılarını da görə bilərsiniz. Biz onların bəzilərini bərpa etmişik. İkinci hissənin tikintisi isə 1898-ci ildə davam etdirilmişdir və bərpa olunmuşdur.

**Prezident İlham Əliyev:** Uçmuş vəziyyətdə idi.

- Çox pis vəziyyətdə idi. Bərpa zamanı işlər Afina memarlığına uyğun olaraq aparılmışdır. Həm daxili, həm xarici tərtibata heç bir xələl gətirilməmişdir. Biz çalışmışıq ki, o vaxt tikinti zamanı istifadə olunan inşaat materiallarından istifadə edək.

**Prezident İlham Əliyev:** Yəni o vaxt bu kərpiclərlə inşa edilmişdi?

- Bəli, 1898-ci ildə tikilmişdir. Biz bu kərpiclərin təqribən 50 faizini dəyişdirmişik, ancaq köhnə kərpiclərdən istifadə etmişik.

**Prezident İlham Əliyev:** Mənə Leyla danışmışdı ki, burada olarkən söhbət əsnasında bu kilsə ilə bağlı məsələ qaldırıldı. O da Bakıya gələn kimi dərhal bu məsələni qaldırdı və ondan sonra bərpa işlərinə start verilmişdir. Bildiyiniz kimi, İkinci Qarabağ müharibəsi dövründə bu kilsənin açılışı olmuşdur.

- Bəli, ayın 7-də açılışı oldu.

**Prezident İlham Əliyev:** Bəli, yenidən açılışı olmuşdur.

- Bizim müdrik Prezidentimiz, Leyla xanım tək Sizin qızınız deyil, o, bizim də qızımızdır, Udi qızıdır. Bəli, bir xahişimizlə bu kilsəni bizə hədiyyə etdi. Pandemiyaya, 44 günlük müharibəyə baxmayaraq, burada bərpa işləri bir gün də dayanmadı. Burada doqquz xalqın nümayəndələri çalışıblar. Çox sağ olun. Təşəkkürümüzü bildiririk.

**Prezident İlham Əliyev:** Udi xalqının çox böyük tarixi mirası var. İndi həm Qəbələ rayonu ərazisində və eyni zamanda, azad edilmiş torpaqlarda siz gedib ibadət edirsiniz - həm Xudavəngdə, həm Ağoğlanda. Orada udi xalqına məxsus olan digər məbədlər də var. Onların böyük hissəsi dağılmış, ya da ki, yarıdağılmış vəziyyətdədir. Ona görə, onları da bərpa edəcəyik. Siz o kilsələrə də gedəcəksiniz. Siz Xudavəngdə bir neçə dəfə olmusunuz.

- Olmuşuq. Biz Laçından, Ağoğlan kilsəsindən ayın 11-də gəlmişik. Cənab Prezident, yeddi dəfə səfərimiz olub.

**Prezident İlham Əliyev:** Çox yaxşı, bundan sonra da olacaq. Çünki bu, böyük bir tarixi irsdir, bizim mirasımızdır. Bu günlərdə Şuşada "Xarıbülbül" festivalında udi xalqının nümayəndələri çıxış etmişlər və orada sizdən olan nümayəndə də var idi. Bu da bir daha onu göstərir ki, Azərbaycanda bütün xalqlar bir ailə kimi yaşayır. Uzun fasilədən sonra Şuşada təşkil edilmiş "Xarıbülbül" festivalının ilk günündə Azərbaycanda yaşayan xalqların nümayəndələri səhnəyə çıxmış və öz mədəniyyətlərini nümayiş etdirmişlər. Eyni zamanda, biz hamımız birliyimizi nümayiş etdiririk və bu kilsənin bərpa edilməsi də bizim birliyimizi təcəssüm etdirir.

- Bəli, sağ olsun Heydər Əliyev Fondunun işçiləri. Sizə öz təşəkkürümüzü bildiririk. Çox gözəl bərpa işləri görüblər. Biz bayramınızı təbrik edirik.

**Prezident İlham Əliyev:** Sağ olun. Gedək baxaq.

- Cənab Prezident, burada bəzi daşlar XII əsrdən qaldığına görə....

**Prezident İlham Əliyev:** Qədim daşlardır.

- Bəli, qədim daşlardır. Biz Türyançaydan daşları tapdıq, onları kəsdik. Həmçinin kərpicləri. Çılçıraqlar, işıqlandırılma - hamısı qədim konsepsiyaya uyğun yaradılıb.

davamı səh. 4

# PREZİDENT İLHAM ƏLİYEV MÜQƏDDƏS YELİSEY ADINA COTARİ VƏ MÜQƏDDƏS MƏRYƏM ANA ALBAN KİLSƏLƏRİNDƏ OLUB

əvvəli səh. 3



**Prezident İlham Əliyev:** Bəli, o stildə yenidən işlənib.

- Cənab Prezident, Müqəddəs Məryəm Ana kilsəsi Azərbaycanda ən böyük kafedral kilsədir. Alban kilsələrinin tərtibatı çox zaman çox geniş olmayıb.

**Prezident İlham Əliyev:** Bəli, sadə olub.

- Sadə olub. İkonalar olmayıb, çox sadə olub.

**Prezident İlham Əliyev:** Sovet vaxtında necə istifadə olunub?

- Bura kolxoz dövründə fındıq anbarı idi.

**Prezident İlham Əliyev:** Sonra müstəqillik dövründə burada bir kilsə bərpa edilmişdi.

- Bəli, Tur Heyerdal gələndə Mədəniyyət Nazirliyi və Norveç humanitar təşkilatı tərəfindən bir kilsə bərpa olundu. O kilsə Ümummilli Liderin vaxtında bərpa olundu. Bu kilsə isə bizim Leyla xanımın dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən bərpa edildi.

**Prezident İlham Əliyev:** Kiş kəndindəki kilsə deyəsən bundan kiçikdir.

- Çox kiçikdir, o birinci kilsədir, balacadır. Ən birinci, qədim kilsədir. Cənab Prezident, biz kilsəni alban, ortodoks konsepsiyasına uyğun olaraq bərpa etdik. Ermənilər özününküləşdirmişdilər. Adətən ermənilərdə Qriqoryan kilsəsində altar hissə daha hündür olur. Albanlarda isə 3 pilləkəndən ibarətdir. Bu, memarlıqda əsas elementdir. Biz onun üstünü açanda gördük ki, ermənilər bunun üstünü bağlayıblar. Biz bunları, alban xaçını təmizlədik.

**Prezident İlham Əliyev:** Bu, alban xaçıdır?

- Bəli, altarı da sementlə bağlamışdılar. Çöl tərəfdən naxışların hamısını bağlamışdılar. Ümumiyyətlə, alban kilsəsi erməni kilsəsindən fərqlidir. Simvollar da fərqlidir.

**Prezident İlham Əliyev:** Bilirəm, XIX əsrdə bütün alban tarixi mirasını özününküləşdirmək istəmişdilər.

-Çalışıblar.

-Prezident İlham Əliyev: Sizin əlinizdən almışdılar.

-Bəli, biz, sadəcə, imtina edib saxladıq. Bizi erməniləşdirmək istəyirdilər, etnos kimi erməniləşdirmək istəyirdilər.

**Prezident İlham Əliyev:** Bilirəm, onların məqsədi o idi.

- Bəli, çalışırdılar ki, biz əriyək.

**Prezident İlham Əliyev:** Bəli, elədir, bilirəm.

- Cənab Prezident, çox maraqlı bir fraqmenti də Sizə göstərim, burada tapılan əlyazmalardır, dünyanın ən məşhur linqvistləri tərcümə edib, alban əlifbasıdır.

**Prezident İlham Əliyev:** Hansı, budur?

- Bəli, görürsünüz, çox maraqlıdır, özü də udi dili əsasında 9 dilə tərcümə ediblər. Bu, onu göstərir ki, albanların öz əlifbası erməni kilsəsindən qabaq olub. Bu məşhur Avropa alimləri tərəfindən təsdiq olunmuşdur. Hər bir vərəqi orijinaldır. Mən özüm Sinayda olmuşam, görmüşəm. Məşhur linqvistlər adlar çəkir, görürsünüz bunlar orijinaldır.

Prezident İlham Əliyev: Bu əlifbanı təbliğ etmək, öyrənmək lazımdır.

- Alimlər bu kitabı orijinaldan 9 dilə tərcümə ediblər.

**Prezident İlham Əliyev:** Siz indi gərək Mədəniyyət Nazirliyi ilə birlikdə bu əlifbada kitablar da dərc edəsiniz, uşaqlar da bu əlifbanı bilsinlər ki, bu, bərpa olunsun. Çünki bu əlifba demək olar ki, istifadə olunmur. Ona görə, gərək bərpa edək. Elmlər Akademiyası, Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu ilə birlikdə.

- Surətini vermişik.

**Prezident İlham Əliyev:** Məşğul olun, bu əlifbada kitablar da dərc olunsun və uşaqlar da bu əlifbanı bilsinlər ki, bu əlifbanı biz bərpa edək.

- Cənab Prezident, bizim müqəddəs kitab birinci dəfə latın əlifbası ilə alban dilinə tərcümə olunub, onu Sizə hədiyyə edirik. Birinci dəfədir, hələ heç təqdimatını etməmişik. Müqəddəs kitabdır.

**Prezident İlham Əliyev:** Alban dilində?

- Bəli, özümüz tərcümə etmişik. Özü də Rafik müəllim tərcüməçidir. Biz burada 49 hərfdən istifadə etdik.

**Prezident İlham Əliyev:** 49 hərf var?

- Qədim 52-dir, biz bunu 49 etdik ki, kompüterdə işləmək üçün yüngül olsun. Burada bizim məktəblərdə latın əlifbası əsasında 4-cü sinfə kimi ana dili dərsi keçirilir.

**Prezident İlham Əliyev:** Çox yaxşı, alban dili də yaşasın, bütün udilər bilməlidirlər.

- Udilər hamısı bilirlər, xüsusən Azərbaycan dilini çox gözəl bilirlər.

**Prezident İlham Əliyev:** O, öz yerində, Azərbaycan dili dövlət dilidir. Amma, alban dili təkcə məişətdə yox, burada udilər arasında geniş istifadə olunmalıdır.

- Müqəddəs kitablar buraxırıq, təqvimlər buraxırıq. Bunları yavaş-yavaş bərpa edirik.

**Prezident İlham Əliyev:** Çox yaxşı.

- Cənab Prezident, Siz noyabrın 24-də Ağdam məscidinin önündə olandan dörd gün sonra mən də orada idim, Robert müəllim də orada idi. Siz bütün dünyaya bəyan etdiniz ki, işğaldan azad olunmuş torpaqlarda biz kilsələri, məscidləri, monastırları bərpa edəcəyik, udi qardaşlar buraya gələcəklər. Siz bizi yaşatdınız. Biz oraya getdik, cənab Prezident. Biz Xocavəndə, Tuğa da getdik. Necə dediniz ki, qardaşlar buraya gələcəklər, bəli, biz gəldik.

**Prezident İlham Əliyev:** Elədir, tarixi ədalət bərpa edildi.

- Sizə cansağlığı, uzun ömür arzulayırıq, Allah Sizi və ailənizi qorusun. Biz bu kilsədə də, bizim Yelisey adına kilsədə də, Qarabağda da daim dua edirik.

**Prezident İlham Əliyev:** Sağ olun, bütün udi qardaşlarımıza, bütün icma nümayəndələrinə salamlarımızı çatdırın. Siz bilirsiniz, mən birinci dəfə deyil buradayam, üçüncü dəfədir. İkinci dəfə gələndə məktəbin açılışı oldu.

- Bəli, çox gözəl yadımızdadır. Məktəbdə olduq.

**Prezident İlham Əliyev:** İndi mənə dedilər ki, bir məktəbin də təmirinə ehtiyac var. 1968-ci ildə tikilmiş məktəb yararsız vəziyyətdədir. O göstərişi də verəcəyəm. Sərəncam da imzalanacaq ki, o məktəbi də bərpa edək. Lazım olan bütün başqa işlər də görüləcək. Mən hər zaman sizin yanınızdayam.

- Çox sağ olun. İki məktəbimiz var, hansı ki, yaşı 150 ildən çoxdur.

**Prezident İlham Əliyev:** İki məktəb?

- Bəli. Çox gözəl etnoqrafik muzeyimiz var.

**Prezident İlham Əliyev:** Təmirə ehtiyacı olan iki məktəbdir, yoxsa, bir məktəb? Mənə 4 nömrəli məktəb dedilər.

- İki.

**Prezident İlham Əliyev:** Biri hansıdır?

- Bir nömrəli məktəb.

**Prezident İlham Əliyev:** Bir və dörd.

- Bəli. Həmin məktəbin həyətində kilsə də var. Amma bir nömrəlinin yaşı 150-dən çoxdur.

**Prezident İlham Əliyev:** O biri məktəblərin vəziyyəti necədir?

- O da pisdir.

**Birinci xanım Mehriban Əliyeva:** Mən tapşıraram Heydər Əliyev Fondunun xətti ilə təmir olunsun.

- Bir məktəb 1972-ci ildə tikilib. Cənab Prezident, bizim gənclər üçün gələcəkdə bir idman kompleksinə böyük ehtiyac var.

**Prezident İlham Əliyev:** Təşkil edərik. Orada kənddə yer var?

- Həmin məktəbin həyətində yer var.

**Prezident İlham Əliyev:** O, bir nömrəli məktəbdir?

- Bəli.

**Prezident İlham Əliyev:** Bir nömrəli məktəbin təmiri, idman kompleksi ilə bağlı işləri yəqin ki, Heydər Əliyev Fondu görəcək. Dörd nömrəli məktəbdə isə təmir işləri dövlət xətti ilə həyata keçiriləcək.

- Həmin kilsənin həyətində.

**Prezident İlham Əliyev:** Mən olduğum kilsənin həyətində?

- Bəli.

**Prezident İlham Əliyev:** Gedək, oraya baxaq.

# BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA AZƏRBAYCANIN XRİSTİAN İCMASINI TƏBRİK EDİB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində respublikamızın xristian icmasını Pasxa bayramı münasibətilə təbrik edib.

Təbrikdə deyilir: "Azərbaycanın bütün xristian icmasını Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Sizin hər birinizə möhkəm cansağlığı, tükənməz sevgi, sevinc dolu günlər və xoşbəxt gələcək arzulayıram!

Qoy, bu mübarək gün hər kəsin qəlbini saf niyyətlər və xoş məramlarla doldursun, hər bir evə xeyir, rahatlıq və rifah, hər bir ölkəyə sülh və əmin-amanlıq gətirsin!"

# RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK



Hörmətli həmvətənlər!

Mübarək Ramazan bayramı münasibətilə sizi ürəkdən təbrik edir, hamınıza səmimi arzu və diləklərimi yetirirəm.

Ən ülvi hissləri və nəcib niyyətləri özündə təcəssüm etdirən, yardımsevərlik və paylaşmaq kimi yüksək əxlaqi dəyərlər aşılayan Ramazan ayı artıq başa çatır. Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu bu mübarək ayda hər bir müsəlman Allah qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək fürsəti qazanaraq xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının sevincini yaşayır.

Müsəlman dünyasının tarixi-mədəni mərkəzlərindən olan Azərbaycan yüz illərdir ki, ayrı-ayrı din və etiqad mənsublarının əmin-amanlıq şəraitində yaşadığı, dinlərarası həmrəyliyin və əməkdaşlığın mövcud olduğu nadir məkanlardandır. Etnik-mədəni müxtəlifliyi ilə seçilən cəmiyyətimizdə qarşılıqlı hörmət və etimada əsaslanan dözümlülük mühitinin, demokratik birgəyaşayışın, vəhdət və harmoniyanın bərqərar olmasında bəşəriyyəti daim sülhə, humanizmə, qardaşlıq və bərabərliyə dəvət edən İslam dini müstəsna rol oynamışdır. Hazırda ölkəmizdə vicdan və etiqad azadlığının, dövlət-din münasibətlərinin mütərəqqi tarixi ənənəyə və beynəlxalq hüquq normalarına uyğun təmin edilməsi, milli-mənəvi dəyərlərimizin təbliği və təşviqi dövlət siyasətimizin əsas prioritetlərindəndir.

Əziz bacı və qardaşlarım!

Xalqımızın birliyini daha da gücləndirən, mənəvi-əxlaqi zənginliyin təntənəsinə çevrilən mübarək Ramazan günlərində ölkəmizin firavanlığı və tərəqqisi naminə etdiyiniz dualara qatılır, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının ölməz xatirəsini ehtiramla yad edirəm. Əminəm ki, qədirbilən xalqımız onların müqəddəs adını həmişə uca tutacaq, şəhid ailələrinə, qazilərimizə diqqət və qayğısını heç vaxt əsirgəməyəcəkdir.

Bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Allah tutduğunuz orucu, dua və niyyətlərinizi qəbul etsin!

**Ramazan bayramınız mübarək olsun!**

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 11 may 2021-ci il*

# BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA RAMAZAN BAYRAMI İLƏ BAĞLI PAYLAŞIM EDİB



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Ramazan bayramı ilə bağlı paylaşım edib.

Paylaşımda deyilir:

"Əziz həmvətənlər!

Təsviredilməz qürur və sevinc hissi ilə bizim doğma Şuşa şəhərimizdən hər birinizə ən xoş arzularımı və müqəddəs Ramazan bayramı münasibətilə səmimi təbriklərimi çatdırıram! Qoy, insanları sülhə, birliyə, həmrəyliyə, xeyirxahlığa və mənəvi kamilliyə dəvət edən bu bayram hər birinizin ocağına sağlıq, qarşılıqlı anlaşma və əmin-amanlıq gətirsin!

Vətən uğrunda həlak olmuş şəhidlərimizin xatirəsini ehtiramla yad edirəm. Onların doğma və yaxınlarına səbir diləyirəm. Uca Tanrı mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin!

Bütün dünya müsəlmanlarını Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm, Allahdan onların dua və oruclarının qəbul olunmasını diləyirəm.

Dərin hörmət və sevgilərlə,
**Sizin MEHRİBAN".**

# BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA 21 MAY - DİALOQ VƏ İNKİŞAF NAMİNƏ ÜMUMDÜNYA MƏDƏNİ MÜXTƏLİFLİK GÜNÜ MÜNASİBƏTİLƏ PAYLAŞIM EDİB




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 21 may - Dialoq və inkişaf naminə Ümumdünya Mədəni Müxtəliflik Günü münasibətilə paylaşım edib.

Paylaşımda deyilir:

"Bu gün 21 may — Dialoq və inkişaf naminə Ümumdünya Mədəni Müxtəliflik Günüdür. Bu gün dünya xalqlarına bir-birini daha yaxşı anlamağı və başqa millətlərin dəyərlərinə hörmət etməyi öyrənmək imkanı verir. Məhz humanitar əməkdaşlıq, mədəniyyətlərarası əlaqələr, başqa mədəniyyətin qavranılması, onu anlamaq, mahiyyətinə varmaq, kömək etmək cəhdləri müasir dünyamızın tez-tez üzləşdiyi ksenofobiya və terrorizm kimi neqativ hallara qarşı mübarizədə çox mühüm silahdır. Mən dünyanın bütün xalqlarına səmimi-qəlbdən möhkəm cansağlığı və xoşbəxtlik, bütün ölkələrə firavanlıq, sülh, əmin-amanlıq və təhlükəsizlik arzulayıram!".

# "ULU ÖNDƏRİN SİYASƏTİNDƏ DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: DÜNYƏVİLİK VƏ MƏNƏVİ BİRLİK" MÖVZUSUNDA VİDEOKONFRANS KEÇİRİLİB

Mayın 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Ulu Öndərin siyasətində dövlət-din münasibətləri: dünyəvilik və mənəvi birlik" mövzusunda videokonfrans keçirilib.




Videokonfransda iştirak edən konfessiya rəhbərlərini, dini icma üzvlərini, gəncləri salamlayan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında milli-mənəvi, dini dəyərlərimizə qayıdışda, dəyərlərin təbliği və inkişafında Ümummilli Lider Heydər Əliyevin rolundan, tolerant və multikultural ənənələrə verdiyi önəmdən bəhs edib.

Bildirib ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın – Azərbaycançılığın təşəkkül və inkişafında müstəsna rol oynayıb. Sovet dövründəki dinlə bağlı sərt qadağalar, din xadimlərinin repressiyalara məruz qalması, bütün dinlərə aid ibadət ocaqlarının dağıdılması, o cümlədən müstəqilliyimizin ilk illərində bütün sahələrdə olduğu kimi, din sahəsindəki pərakəndəlik dinlə bağlı daha həssas, qətiyyətli, həm də məqsədyönlü siyasətin həyata keçirilməsinə zərurət yaratdı. Məhz Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu uğurlu siyasət nəticəsində dövlət-din münasibətlərində həssas nəzarətlə bərabər, ölkədə etiqad azadlığı üçün şərait yaradıldı, dini dəyərlərə, ibadət yerlərinə və din adamlarına xüsusi qayğı göstərilməyə başlanıldı. Müstəqil dövlətin ilk milli Konstitusiyasında dini etiqad azadlığı, vicdan azadlığı tam şəkildə təmin edildi, dünyəvilik prinsipi dövlət-din modelinin əsası kimi müəyyənləşdi.

Komitə sədri qeyd edib ki, Azərbaycanın təməl prinsiplərini Ulu Öndərin ideyaları təşkil edən bugünkü nümunəvi dövlət-din, tolerantlıq modeli öz bəhrəsini verir. Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində qoyduğu siyasətin onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla aparılmasının nəticəsidir ki, bu siyasət dünya ölkələri tərəfindən nümunəvi model kimi qəbul olunur. Dini məbədlərin inşası, bərpası və qorunması istiqamətdə Birinci-vitse Prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini xüsusilə qeyd edən Komitə sədri Fondun həyata keçirdiyi işlərin təkcə ölkə daxilində deyil, onun hüdudlarından kənarda da böyük əks-səda doğurduğunu bildirib.

Azərbaycanın dövlət-din modelinin milli həmrəylik baxımından önəminə toxunan DQİDK sədri onun dinlərarası anlaşma ideyası təlqin etdiyini, Vətən müharibəsi dövründə nümunənin, milli-dini həmrəyliyimizin sınaqdan uğurla çıxdığını, ölkəmizdə yaşayan müxtəlif dinlərin, etnosların nümayəndələrinin Azərbaycançılıq ideyası ətrafında "Dəmir yumruq" kimi birləşdiyini deyib.

Çıxışı zamanı Sovet dövründə Azərbaycanda cəmi 17 məscidin fəaliyyət göstərdiyini, kilsə və sinaqoqlarının yararsız hala salındığını xatırladan M.Qurbanlı indi ölkəmizdə 2250 məscidin, 16 kilsə və 7 sinaqoqun olduğunu, 37-si qeyri-islam olmaqla 970 dini qurumun dövlət qeydiyyatına alındığını deyib. Əlavə edib ki, dövlət müxtəlif konfessiyalara bərabər münasibət bəsləyir, İslam və qeyri-islam dini icmalara maddi dəstək verir, azsaylı xalqların müxtəlifliklərinin qorunması istiqamətində qayğısını əsirgəmir. Bütün bunlar bir daha təsdiqləyir ki, müstəqil dövlətimizin siyasəti "tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyət" kimi Ulu Öndərimizin uzaqgörənliyi sayəsində möhkəm, dayanaqlı özüllər üzərində qurulub. Azərbaycan bu gün Heydər Əliyev yolu ilə inkişaf edərək yeni-yeni uğurlara imza atır.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Salman Musayev tarixi şəxsiyyətin dini sahəyə qayğısına diqqət çəkərək Onun İslam dininə olan ehtiramı, məscidlərin və digər dini ibadət yerlərinin yenidən qurulmasına verdiyi töhfələr barədə danışıb. Bildirib ki, Ümummilli Liderin xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, məscidlərin, ziyarətgahların bərpası ilə bağlı tədbirləri həyata keçirməsi onun bir daha xalqa mənən bağlılığını və islami dəyərlərə sədaqətini göstərən parlaq misallardır. Bibiheybət məscidinin də məhz Ulu Öndərin sayəsində yenidən tikildiyini bildirən S.Musayev bütün bunların Heydər Əliyevin dinə duyduğu dərin inam və hörmətinin göstəricisi olduğunu vurğulayıb.

Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, Azərbaycan xalqının çoxəsrlik adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunub saxlanılmasında və tolerantlıq ənənələrinin möhkəmləndirilməsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətləri var. Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə olduğu kimi ölkəmizdə dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, dini abidələrimizin bərpası istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildi. Məhz Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan Respublikasının Konstitusiyasına dini etiqad azadlığı ilə bağlı bir sıra mühüm müddəalar salındı. Azərbaycan əhalisinin böyük əksəriyyətinin müsəlman olmasına baxmayaraq, konstitusiyada bütün dinlərin bərabərhüquqlu, hər bir vətəndaşın etiqad azadlığına sahib olduğu xüsusi vurğulandı. Bununla dövlət-din münasibətlərində yeni bir mərhələnin əsasının qoyulduğunu deyən millət vəkili, eyni zamanda onun müsəlman ölkələri ilə əlaqələrin inkişafı, İslamın Qafqazda yayılmasının tarixinin öyrənilməsi, mədəniyyətlərarası dialoq və dinlərarası əməkdaşlıq sahələrinin inkişafına yönəlik xidmətlərindən bəhs edib.

Çıxışına Ulu Öndərin "Tolerantlıq xalqın yüksək mədəniyyətinin təzahürüdür" kəlamı ilə başlayan Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev bildirib ki, onun rəhbərliyi ilə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir. Buna görə də Azərbaycandakı bütün xalqlar özlərini sərbəst, rahat hiss edir, dini inanclarına görə mənfi münasibətlərə məruz qalmır, dövlətin tamhüquqlu vətəndaşları olaraq yaşayırlar.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov isə "tolerantlıq və multikulturalizm" terminləri yaranmamışdan öncə də bu terminlərin ehtiva etdiyi prinsiplərin ölkəmizdə tətbiq edildiyini, eləcə də respublikamızda dini və etnik zəmində münaqişə yaşanmadığını vurğulayıb. Rektor müstəqil Azərbaycan Respublikasında multikultural mühitin qorunması, din-dövlət münasibətlərinin qurulmasında Heydər Əliyevin rolunun əvəzsiz olduğunu qeyd edib. O bildirib ki, Ümummilli Lider Heydər Əliyev multikultural dəyərlərə milli sərvət kimi yanaşaraq deyirdi: "Azərbaycanın çoxmillətli, tolerant ölkə olması bizim böyük sərvətimizdir, üstünlüyümüzdür... Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi Vətənidir... "Azərbaycan" sözü bizi həmişə birləşdirib". A.Şirinov 2001-ci ildə Ulu Öndər Heydər Əliyev tərəfindən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının dövlət-din münasibətlərinin tənzimlənməsində uğurlu və uzaqgörən addım olduğunu diqqətə çatdırıb.

Azərbaycanda Katolik Kilsəsinin Apostol Prefekturasının ordinarisi Vladimir Fekete qeyd edib ki, multikulturalizm və tolerantlıq siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edən Heydər Əliyevin bu prinsipi Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycanda din dövlətdən ayrı olsa da, bütün dini icmalar dövlətin diqqətini, qayğısını və himayəsini hiss edirlər.

Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski Ulu Öndərin Azərbaycanı böyük inkişaf yoluna çıxaran dahi şəxsiyyət olduğunu vurğulayaraq ölkəmizdə multikulturalizm ənənələrinin formalaşması və bu modelin yaradılmasında Heydər Əliyevin çoxşaxəli xidmətlərini diqqətə çatdırıb.

# "QAFQAZ ALBANİYASI: TARİX, DİN VƏ MEMARLIQ"

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), AMEA-nın Tarix İnstitutu, Mədəniyyət Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Memarlıq və İnşaat Universitetinin birgə təşkilatçılığı ilə 2021-ci il mayın 26-da "Qafqaz Albaniyası: tarix, din və memarlıq" mövzusunda onlayn formatda beynəlxalq elmi konfrans keçirilib. Beynəlxalq konfransda 9 ölkəni – Almaniya, Norveç, Fransa, İtaliya, Türkiyə, Rusiya, Litva, Gürcüstan və Azərbaycanı təmsil edən araşdırmaçı alimlər iştirak ediblər. Tədbir AMEA-nın Tarix institutunun baş direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürovun moderatorluğu ilə keçirilib.

Beynəlxalq konfransda DQİDK sədri Mübariz Qurbanlı çıxış edərək Ermənistan tərəfindən 30 ilə yaxın müddət ərzində işğal altında saxlanılan və BMT tərəfindən tanınan Azərbaycan ərazilərində etnik təmizləmə və soyqırımı həyata keçirilməsi, mövcud olan 60-dan çox məscid, 200-ə yaxın ziyarətgahın dağıdılması və ya təhqir predmetinə çevrilməsi, eləcə də alban xristian məbədlərinin saxtalaşdırılaraq qriqoryanlaşdırılması və ya dağıdılması, Xocavənd rayonu ərazisindəki pravoslav kilsəsinin ermənilər tərəfindən talan edilməsi faktına diqqət yetirib. M.Qurbanlı bütün bu cinayətkar əməlləri ilə ermənilərin "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərini kobud surətdə pozmasını qeyd edib.

BBMM-nin icraçı direktoru Rəvan Həsənov çıxış edərək bildirib ki, dünyanın müxtəlif ölkələrindən olan araşdırmaçılar tərəfindən Qafqaz Albaniyasının tarixinin tədqiq edilməsi çox yaxşı haldır, bu, qədim ölkənin tarixinin saxtalaşdırılmasının qarşısının alınmasında mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, bu sahədə xarici və yerli alim və tədqiqatçılarımızın əməkdaşlığının artırılmasına da böyük ehtiyac vardır. BBMM bütün xarici və yerli mütəxəssislərə çağırış edərək bildirir ki, Qafqaz Albaniyasının tarixinin araşdırılması barədə fəaliyyətin layihələndirilməsini və bu sahədə müxtəlif yardımların göstərilməsini dəstəkləməyə hazırıq.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova öz çıxışında qeyd edib ki, hələ sovetlər dönəmində Qafqaz Albaniyasının tarixinin araşdırılmasına qonşularımız tərəfindən, yumşaq desək, qısqanclıq var idi. Onların bu ərazilərə iddiaları o zamanlar da mövcud idi. Ermənilər tərəfindən son 30 il ərzində isə bu ərazilərdə təkcə alban-xristian abidələri deyil, həm də İslam abidələri də saxtalaşdırılıb və ya talan edilib. UNESCO və digər müvafiq beynəlxalq qurumların diqqəti tarixi abidələrin təhrif edilərək dəyişdirilməsi və talan edilməsi faktına cəlb edilməlidir. Ona görə ki, dağıdılan, saxtalaşdırılan tarixi abidələr təkcə bizim deyil, həm də bəşəriyyətin maddi-mənəvi irsidir.



Sonra beynəlxalq elmi konfrans iki panel formatında fəaliyyətini davam etdirib. Konfransda xarici alimlərdən Höte adına Frankfurt Universitetinin Empirik Dilçilik İnstitutunun müqayisəli dilçilik üzrə professoru, dilçi, yazıçı Jost Gippert (Almaniya) "Qafqaz albanlarının ayinləri: Sinay Palimpsestlərindən yeni baxış", Oslo Universitetinin professoru filologiya elmləri doktoru Byorn Vegge (Norveç) "Qafqaz Albaniyasının Apostol kilsəsinin tarixinə nəzər", Qafqaz Dilləri və Filologiyası Tədqiqat Mərkəzinin direktoru, professor Jil Utye (Fransa) "Udin-Alban dili ilə qohum dillər arasındakı fərqlər və oxşarlıqlar", İvan Cavaxişvili adına Tiflis Universitetinin Dilçilik İnstitutunun tədqiqatçısı, filologiya elmləri doktoru, professor Roman Lolua (Gürcüstan) "Moisey Xorenlinin mənşəyi problemi və Qafqaz-Alban yazıları", memar, Trento Universitetinin müəllimi (İtaliya) Paolo Zammatteo "Sərhədlərin kənarında. Xudavəng monastırının (Kəlbəcər) bədii və mədəni perspektivi", İtaliyanın Merano şəhərində Nikolayevski pravoslav prixodunun baş keşişi, Kilsə tarixi üzrə elmlər doktoru (Pontificio Istituto Orientale/Papa Şərq İnstitutu) İqumen Aleksiy (Nikonorov) "VI əsrdə alban kilsəsi yeparxiyası" mövzuları ilə çıxış edib.

Azərbaycanı isə konfransda AMEA-nın Tarix İnstitutunun baş direktoru, tarix elmləri doktoru, professor Kərim Şükürov ("Albanşünaslığın tarixi: xronoloji-problem təhlili"), Tarix İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Fəridə Məmmədova ("Qarabağ - qədim Azərbaycan torpağıdır"), Alban-Udi Xristian İcmasının sədri Robert Mobili ("Alban-Udi dini icması Azərbaycanda alban-xristian kilsəsinin varislərindən biri kimi"), AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Ülviyyə Hacıyeva ("Azərbaycanın Tərtər bölgəsinin alban tarixi və mədəni irsi"), Azərbaycan Dövlət İqtisad Universitetinin Multikulturalizm Mərkəzinin rəhbəri, tarix elmləri doktoru, professor Məhəbbət Paşayeva ("Müqəddəs Yeliseyin Qafqaz Albaniyasındakı son dayanacağı: Zərqun Vadisi (miflər və həqiqətlər))" və ölkənin elmi mərkəzlərində çalışan alimlər təmsil və çıxış ediblər.

Elmi konfransın keçirilməsində məqsəd Qafqaz Albaniyası haqqında həqiqətlərin dünya elmi ictimaiyyətinə çatdırılmasına töhfə verməkdir.

# AZƏRBAYCANLA ÖZBƏKİSTAN ARASINDA DİNİ SAHƏDƏ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİLİB

Mayın 4-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Özbəkistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov ilə görüşüb.

İki ölkə arasında tarixi kökləri olan dostluq münasibətlərinə toxunan Komitə sədri Azərbaycanın böyük zəfəri ilə yekunlaşan 44 günlük Vətən müharibəsi zamanı Özbəkistanın ölkəmizin haqq işini dəstəkləməsini növbəti qardaşlıq nümunəsi kimi dəyərləndirib. Səfirlə ötən il Vətən müharibəsi dövründə görüşdüyünü xatırladan M.Qurbanlı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun tarixi qələbəyə imza ataraq azad etdiyi torpaqlarımızda artıq bərpa işlərinə başlanıldığını deyib. Eyni zamanda, Komitə sədri Ermənistanın işğal edilmiş ərazilərdə tarixi-dini abidələri viran etdiyini diqqətə çatdırıb.



Mübariz Qurbanlı DQİDK ilə Özbəkistan Nazirlər Kabineti yanında Dini İşlər Komitəsi, həmçinin Azərbaycan İlahiyyat İnstitutu və Özbəkistan Beynəlxalq İslam Akademiyası arasında əməkdaşlıq memorandumlarının imzalandığını vurğulayaraq bildirib ki, pandemiya səbəbindən bəzi tədbirlərin həyata keçirilməsi mümkün olmasa da, əlaqələr uğurla davam etdirilir.

Səmimi görüşdən məmnunluğunu dilə gətirən Özbəkistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov öz növbəsində Vətən müharibəsində qazanılan qələbə və bölgədə sülhün təmin edilməsi münasibətilə bir daha təbriklərini çatdırıb. Diplomat müharibə dövründə Tərtər, Bərdə rayonları və Gəncə şəhərinə səfər etdiyini vurğulayaraq Ermənistanın cəbhə zonasından kənarda yerləşən ərazilərimizdə törətdiyi hərbi cinayətlərin nəticələrindən dərin təəssüf hissi keçirdiyini bildirib, "Qafqazın Xirosiması" adlandırılan Ağdam və Füzulidə ermənilərin törətdiyi vandallıq aktlarına bölgəyə səfəri zamanı şahid olduğunu diqqətə çatdırıb. B.Aşrafxanov həmin ərazilərdə başlayan quruculuq işlərinin Azərbaycanın qalib dövlət kimi yeni hədəflərə doğru inamla addımladığının göstəricisi olduğunu xüsusi vurğulayıb və Özbəkistan tərəfinin quruculuq, abadlıq işlərində iştirakda maraqlı olduğunu qeyd edib.

Dini sahədə əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyəti barədə danışan səfir iki ölkənin din siyasətini həyata keçirən qurumları arasında dini turizmin inkişaf etdirilməsinin perspektivlərinə toxunub. Bununla bağlı hər iki dövlətin müvafiq qurumlarının birgə fəaliyyətə və təcrübə mübadiləsinə zərurət yarandığını bildirib.

# DƏMİR YUMRUĞUN TƏNTƏNƏSİ

*Şərəfli və mənalı ömür yolunu Azərbaycanın inkişafına, onun dünya birliyində özünə layiqli yer tutmasına həsr etmiş Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünü xalqımız dərin ehtiramla yad edir.*

*Heydər Əliyevin ümummilli maraqları ifadə edən, qətiyyətli iradəyə və əzmkarlığa söykənən möhtəşəm fəaliyyəti bugünkü və gələcək nəsillər üçün parlaq nümunədir. Cəmiyyətin bütün sahələrində hərtərəfli inkişafa nail olmaq, xüsusilə Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərini azad etmək Heydər Əliyevin siyasətində əsas strateji vəzifələr olmuşdur.*

*Hələ SSRİ dövründə ermənilər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşməsi ilə bağlı cəhd göstərsə də, onun qarşısını Heydər Əliyev qətiyyətlə almışdır. Sov.İKP Mərkəzi Komitəsinin rəhbərliyinin ermənipərəst siyasəti nəticəsində Heydər Əliyevin 1987-ci ildə vəzifəsindən kənarlaşdırılması ermənilərin və onların havadarlarının Azərbaycana qarşı separatçı əməllərə əl atmaları üçün fürsət yaratdı. Həmin dövrdə Ermənistan Azərbaycanda xaos və hərc-mərcliyin baş alıb getməsindən, cəmiyyətin idarəolunmaz vəziyyətə düşməsindən istifadə edərək hərbi təcavüzkarlıq planlarını genişləndirdi. Xüsusilə Ermənistanın işğalçılıq siyasətinin qarşısını almaq üçün AXC-Müsavat iqtidarının vahid komandanlığa tabe olan milli ordu yaratmaq əvəzinə qanunsuz silahlı dəstələrin fəaliyyətinə rəvac verməsi xalqımızın kəskin narazılığına səbəb oldu. 1993-cü il iyunun 4-də Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalanda keçmiş hakimiyyət həm xalqımızın israrlı tələbini, həm də özünün acınacaqlı aqibətini nəzərə alaraq Heydər Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qaldı.*

## Sosial-iqtisadi inkişafın ordu quruculuğunda rolu və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atılan addımlar





Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi Azərbaycan xalqının və dövlətinin həyatında mühüm tarixi hadisə oldu, cəmiyyətin bütün sahələrini əhatə edən milli inkişaf strategiyasının əsası qoyuldu. Ümummilli Lider Heydər Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra 1993-cü il oktyabrın 10-da keçirilən andiçmə mərasimindəki çıxışında bildirib: "İşğal, qaçqınların vəziyyəti respublikanın ictimai-siyasi, mənəvi vəziyyətini gərginləşdirmişdir. Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır. Əmin ola bilərsiniz ki, mən bütün səylərimi səfərbər edib, Azərbaycan xalqının istədiyinə nail olacağam".

Həmin dövrdə ictimai-siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhran o həddə çatmışdı ki, Azərbaycanın döyüş əməliyyatları vasitəsilə Ermənistanın hərbi təcavüzünün qarşısını almaq imkanları yox idi. Vahid komandanlıq altında nizami ordunun formalaşdırılması, siyasiləşmiş hərbi dəstələrin ləğv edilməsi, peşəkar hərbi mütəxəssislərin hazırlanması kimi vacib məqsədlərə nail olmaq üçün müəyyən vaxt lazım idi. Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsini və Azərbaycanın hərbi sahədə vəziyyətini xarakterizə edərək deyirdi: "Danışıqlar və sülh yolu ilə, BMT, ATƏM, BMT-nin Təhlükəsizlik Şurası, digər böyük dövlət və beynəlxalq təşkilatların imkanlarından səmərəli istifadə edərək, bu vəzifələri yerinə yetirməliyik. Ancaq Azərbaycan Respublikası özünü müdafiə etməyə qadir olan orduya malik olmalıdır". Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Ermənistanın işğalçılıq siyasətinin qarşısını almaq üçün fəal siyasi-diplomatik addımlar atdı, onun təşəbbüsü ilə BMT Təhlükəsizlik Şurası 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etdi. 1993-ci ilin dekabr ayından 1994-cü il yanvar ayının əvvəllərinə kimi davam edən Horadiz döyüşlərində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş bir sıra yaşayış məntəqələri azad edildi.

Heydər Əliyev beynəlxalq münasibətlərdə hökm sürən ikili standartlar siyasətinə və Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə dünyanın nüfuzlu təşkilatlarının seyrçi mövqedən çıxış etməsinə həmişə kəskin etirazını bildirib. BMT Baş Məclisinin 49-cu sessiyasında (29 sentyabr 1994-cü il) çıxış edən Heydər Əliyev bu təşkilatın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi dörd qətnaməsinin tələblərinin Ermənistan tərəfindən yerinə yetirilmədiyini bildirərək deyib: "...Təhlükəsizlik Şurası da qəbul edilmiş qətnamələrin mexanizmini işə salmamışdır. Belə bir sual meydana çıxır: Təhlükəsizlik Şurası nə dərəcədə ardıcıl və qətiyyətlidir, hər bir konkret halda onun səlahiyyətlərinin tətbiq dərəcəsi nə ilə müəyyən edilir? Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməməsi BMT-yə qarşı işləyir və onun beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq kimi əsas vəzifəsini yerinə yetirmək bacarığına inamı poza bilər". Heydər Əliyevin mövqeyinə görə, Dağlıq Qarabağ münaqişəsi yalnız BMT Təhlükəsizlik Şurasının qətnamələrinin Ermənistan tərəfindən yerinə yetirilməsi yolu ilə həll oluna bilərdi ki, bunun nəticəsində uzunmüddətli sülhün yaranması və regionun bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi mümkün olardı.

Ulu Öndər Azərbaycanın hərbi təhlükəsizliyini təmin etmək qabiliyyətinə malik olan Silahlı Qüvvələrin yaradılması yönündə fəal siyasət həyata keçirdi. Qoşun hissələri keçmiş hakimiyyətlərdən miras qalmış təxribatçı-siyasi ünsürlərdən təmizləndi və möhkəm nizam-intizama, yüksək döyüş əhvali-ruhiyyəsinə malik olan Milli Ordu formalaşdırıldı. Ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanması, onların ixtisasının artırılması, hərbi iş sahəsində elmi tədqiqatların aparılması üçün Heydər Əliyevin 1999-cu il 20 fevral tarixli fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradıldı.

Heydər Əliyevin apardığı xarici siyasətdə Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi əsas istiqamətlərdən birini təşkil etdi. Azərbaycanın xarici siyasəti beynəlxalq hüquqi normalar, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərinə qarışmamaq kimi prinsiplər əsasında formalaşdırıldı. Xarici siyasət həyata keçirilərkən Azərbaycanın geosiyasi vəziyyəti, onun dünya ölkələri ilə ayrı-ayrılıqda və çoxtərəfli formatda münasibətlərinin xüsusiyyətləri nəzərə alındı. Regional və beynəlxalq təşkilatlarla əlaqələr möhkəmləndi. Dağlıq Qarabağ münaqişəsinin yaranması tarixi və onun nəticələri ilə bağlı dünya ictimaiyyətinin məlumatlandırılması sahəsində mühüm tədbirlər görüldü. Heydər Əliyev xarici ölkələrin dövlət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, Azərbaycan diasporunun nümayəndələri ilə görüşlərində Dağlıq Qarabağ münaqişəsi haqqında ətraflı məlumat verib.

Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və digər qurumların tribunalarından səsləndirmiş, beynəlxalq birliyi problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırmışdı. Ulu Öndər Ermənistanın hərbi təcavüzünü pisləyərək deyirdi: "Ermənistan Azərbaycan torpaqlarını işğal edibdir, Ermənistan qeyri-konstruktiv mövqe tutubdur, Ermənistan Dağlıq Qarabağı müstəqil dövlət etmək istəyir və bildirdim ki, biz bunların heç birisi ilə razı ola bilməyəcəyik. Biz heç vaxt yol verə bilmərik ki, Dağlıq Qarabağ dövlət müstəqilliyi əldə etsin. Biz heç vaxt yol verə bilmərik ki, Azərbaycanın ərazisində ikinci erməni dövləti yaransın".

1994-cü ilin dekabrında ATƏM-in Budapeştdə keçirilən Zirvə görüşündə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar bu təşkilatın fəaliyyətinin gücləndirilməsi haqqında qərar qəbul olundu. ATƏT-in (1995-ci il yanvarın 1-dək Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) adlandırılıb) 1996-cı dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilmiş sammitində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının baza formulu müəyyən edildi. Ermənistan istisna olmaqla, ATƏT-in üzvü olan 53 Avropa dövləti münaqişənin həllini nəzərdə tutan və Azərbaycan xalqının milli maraqlarına uyğun gələn prinsipləri dəstəklədi.

BMT və ATƏT-lə yanaşı, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) kimi qurumlar da dövlətlərin sərhədlərinin toxunulmazlığı çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin həllinə tərəfdar olduqlarını bildiriblər. İƏT Ermənistanın Azərbaycana hərbi təcavüz faktını tanıyan ilk beynəlxalq qurumdur. 1993-cü il aprelin 25-29-da İƏT-in xarici işlər nazirlərinin Pakistanın Karaçi şəhərində keçirilən 21-ci konfransında qəbul edilmiş qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən təcili çıxması tələb olundu.

Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli üçün geoiqtisadi faktorların oynaya biləcəyi rola böyük əhəmiyyət verirdi. Ulu Öndərin mövqeyinə görə, ölkəmizin zəngin təbii ehtiyatlarından və dövlətlərarası enerji-nəqliyyat layihələrinin imkanlarından səmərəli şəkildə istifadə etməklə həm Azərbaycanın sosial-iqtisadi inkişafını sürətləndirmək, həm də onun Silahlı Qüvvələrinin maddi-texniki bazasını möhkəmləndirmək vacib idi. Bu baxımdan 1994-cü il sentyabrın 20-də Azərbaycanla dünyanın nüfuzlu neft şirkətləri arasında "Əsrin müqaviləsi"nin imzalanması xalqımızın həyatında böyük tarixi hadisə oldu. Müqavilə çərçivəsində regional və beynəlxalq əhəmiyyət daşıyan enerji layihələrinin həyata keçirilməsinə başlanması Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu artırdı. 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərləri istifadəyə verildi, 1999-cu ildə Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Saziş imzalandı.

Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan beynəlxalq əhəmiyyət daşıyan nəqliyyat dəhlizləri ilə bağlı layihələrə qoşuldu. Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən və tarixi İpək yolunun bərpasını nəzərdə tutan TRASEKA layihəsinin reallaşmasında Azərbaycan yaxından iştirak etdi. Avropa Birliyi Komissiyası və

davamı səh. 9

# DƏMİR YUMRUĞUN TƏNTƏNƏSİ

əvvəli səh. 8 TRASEKA proqramının iştirakçısı olan ölkələrin birgə qərarı ilə 1998-ci il sentyabrın 8-9-da Bakıda tarixi İpək yolunun bərpasına həsr edilmiş beynəlxalq konfrans keçirildi. 32 ölkənin və 13 beynəlxalq təşkilatın səlahiyyətli nümayəndələrinin iştirak etdiyi tədbirdə "Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas Saziş" imzalandı. Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən dövlət proqramları həyata keçirildi, Azərbaycan iqtisadi inkişafın artım sürətinə görə postsovet respublikaları arasında qabaqcıl mövqe tutmağa başladı. Əlverişli biznes mühitinin yaradılması ölkəmizə xarici investisiya qoyuluşunu sürətləndirdi.

Heydər Əliyevin istər Azərbaycanın dinamik inkişafı, istərsə də Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atdığı addımlar etnik mənsubiyyəti, dini baxışları və adət-ənənələrindən asılı olmayaraq ölkə vətəndaşları tərəfindən dəstəkləndi. Dini konfessiyalar və etnik qruplar vətəndaş həmrəyliyinin möhkəmlənməsində, ictimai-siyasi sabitliyin təmin olunmasında yaxından iştirak edərək, müstəqil Azərbaycan dövlətçiliyi ətrafında sıx birləşdilər. Onlar müxtəlif tarixi dövrlərdə daxili və xarici siyasi dairələrin Azərbaycana qarşı yönəlmiş təxribatçı əməllərinə kəskin etirazlarını bildirdilər.

## Azərbaycanın yeni inkişaf mərhələsi və II Qarabağ müharibəsində qələbəni təmin edən iqtisadi-siyasi, diplomatik faktorlar

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan yeni inkişaf mərhələsinə daxil oldu ki, bu da Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün ciddi siyasi-iqtisadi və mənəvi-psixoloji zəmin yaratdı. 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində başlayan müharibədə xalqımız Prezident İlham Əliyevin müzəffər komandan kimi hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün bir daha şahidi oldu. 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın işğal olunmuş əraziləri cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə erməni qəsbkarlarından azad edildi. Xalqımızın tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən bu şanlı qələbənin əsasında həm Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, həm də ondan irəli gələrək Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə uğurları, xarici siyasətdə nailiyyətləri dayanır.

Prezident İlham Əliyevin siyasəti özündə milli maraqları əks etdirir və müasir dövrün çağırışlarına cavab verir. Davamlı iqtisadi inkişafa malik olması, sosial, humanitar və digər sahələrdə böyük nailiyyətlər əldə etməsi Azərbaycanın dünya birliyində nüfuzunu artırır. Milliyyətindən asılı olmayaraq hər kəsin hüquqlarının qorunması, müxtəlif millətlərin mədəniyyətlərinin və adət-ənənələrinin inkişafına şərait yaradılması vətəndaş həmrəyliyini möhkəmləndirən faktor kimi çıxış edir. Azərbaycan dünyada fərqli dini sivilizasiyaların qovuşduğu tolerant məkan, milli birlik şəraitində yaşayan dövlət kimi tanınır.

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət Azərbaycanı dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli münasibətlərdə vacib tərəfdaş kimi tanıdır, onun BMT, Avropa Birliyi, ATƏT, MDB, İƏT, Qoşulmama Hərəkatı kimi təşkilatlarla əlaqələrini möhkəmləndirir. 2011-ci il oktyabrın 24-də 155 dövlətin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi xalqımızın tarixində mühüm hadisədir. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün ardıcıl olaraq həm Ermənistan prezidentləri və baş naziri ilə danışıqlarda, həm də BMT Baş Məclisinin sessiyalarında, ATƏT, Avropa Şurası, İƏT, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatların tədbirlərində çıxışı zamanı münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin Ermənistan tərəfindən beynəlxalq hüquqi prinsiplərə zidd olaraq yerinə yetirilmədiyini bildirib. BMT Baş Assambleyasının 2006-cı və 2008-ci illərdə keçirilən sessiyalarında qəbul olunmuş sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması faktı pislənilib, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyi vurğulanıb. ATƏT, Avropa Şurası, Avropa İttifaqı, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatların müxtəlif tədbirlər çərçivəsində qəbul etdiyi sənədlərdə dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin həllinin mümkünlüyü bildirilib.

Dövlət başçısı Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı xarici siyasətlə paralel olaraq Milli Ordumuzun maddi-texniki bazasını gücləndirib. Azərbaycan Prezidentinin 2005-ci il 16 dekabr tarixli sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyinin yaradılması ordu quruculuğu sahəsində atılan mühüm addımlardan biridir. Son illər xeyli sayda hərbi sənaye müəssisəsi tikilib istifadəyə verilib. Bunun nəticəsidir ki, Azərbaycan müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Silahlı Qüvvələrə malikdir.

Prezident İlham Əliyev Azərbaycanın enerji resurslarının dünya bazarlarına səmərəli və əlverişli yollarla çıxarılmasını nəzərdə tutan praqmatik siyasət həyata keçirir və şaxələndirilmiş nəqliyyat infrastrukturu vasitəsilə beynəlxalq birliyin diqqətini ölkəmizə cəlb edir. Bütün bunlar Azərbaycanın geoiqtisadi maraqlarının təmin edilməsi baxımından vacib əhəmiyyət daşıyır. Respublikamız böyük enerji-nəqliyyat layihələrinin əsas təşəbbüskarlarından biri kimi regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində xüsusi yer tutur.

Ermənistan-Azərbaycan münaqişəsinin həllinə nail olmaq üçün ötən illər ərzində fəal və çevik xarici siyasət həyata keçirilib. Dağlıq Qarabağın tarixi ilə bağlı dünya ictimaiyyətinə dolğun məlumatlar çatdırılıb, Ermənistanın Azərbaycana qarşı qarayaxma kampaniyası ildən-ilə fiaskoya uğrayıb. Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın prinsipial mövqeyini dəfələrlə BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı, İƏT, MDB kimi beynəlxalq və regional təşkilatların nəzərinə çatdırıb, Ermənistanı işğalçılıq siyasətindən əl çəkməyə, dünya dövlətlərini isə problemin aradan qaldırılması üçün fəallıq göstərməyə çağırıb.

Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsinin, zabit-əsgər heyətinin yüksək hərbi hazırlığa və vətənpərvərlik əhvali-ruhiyyəsinə malik olmasının nəticələri özünü II Qarabağ müharibəsində parlaq şəkildə göstərdi. Hələ müharibə başlamamışdan əvvəl dünyanın nüfuzlu "Global Firepower Index" (Hərbi Gücün Qlobal İndeksi) təşkilatının məlumatında bildirilirdi ki, 2020-ci il üzrə "Ən güclü ordu" reytinqinə görə Azərbaycan Ordusu dünyanın 138 dövlətinin orduları sırasında 64-cü yerdədir. Siyahıda Gürcüstan 89-cu, Ermənistan isə 111-ci sıradadır. Azərbaycan Ordusu yalnız Cənubi Qafqazda deyil, həmçinin MDB məkanında lider mövqelərdən birini tutur.

II Qarabağ müharibəsində Azərbaycan xalqı Prezident İlham Əliyevin apardığı siyasətlə bağlı həmrəylik nümayiş etdirdi. Bir daha aydın oldu ki, milli birliyin təmin olunması, müxtəlif ictimai-siyasi qüvvələr arasında etimad mühitinin yaradılması istiqamətində Azərbaycan Prezidentinin atdığı addımlar ictimai fikirdə onun haqqında uzaqgörən və müdrik lider obrazını daha da möhkəmləndirir. II Qarabağ müharibəsindən əvvəl də ermənilərin hərbi təxribatlarının qarşısının alınması üçün Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət ətrafında xalqımız həmrəylik nümayiş etdirdi. Buna nümunə kimi, 2016-cı ilin aprel, 2020-ci ilin iyul ayında baş vermiş Tovuz döyüşlərini göstərmək olar. Azərbaycanın düşmənlə təmas xəttində yerləşən mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin intensiv atəşinə məruz qalanda Milli Ordumuz əks-hücum əməliyyatı ilə düşmənin təxribatlarının qarşısını aldı. Həmin döyüşlərdə mühüm nailiyyətlər əldə olundu, bir neçə yüksəklik və müəyyən ərazilər Ermənistanın işğalından azad olundu, əldə edilmiş qələbə Azərbaycanda vətəndaş birliyini daha da möhkəmləndirdi. Əvvəllər ermənilər dünyaya ordularının yenilməz, güclü olması haqqında yalan, şişirdilmiş məlumat yayırdılar. Lakin II Qarabağ müharibəsindəki döyüşlər ermənilərin bu cür iddialarının reallıqdan uzaq, cəfəngiyyat olduğunu sübut etdi və qısa müddət ərzində Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məhv etməklə öz qüdrətini bütün dünyaya nümayiş etdirdi. 44 günlük müharibə dövründə dünyanın nüfuzlu telekanallarına verdiyi müsahibələrində Prezident İlham Əliyevin Azərbaycana dair həqiqətləri beynəlxalq aləmin diqqətinə yüksək diplomatik peşəkarlıqla çatdırması dövlətimizin informasiya müharibəsində də qələbəsini təmin etdi.

Ermənistanın atəşkəs rejimini pozması nəticəsində baş verən müharibədə Azərbaycan Ordusu düşmənin hərbi qüvvələrini darmadağın etdi. Bu qələbə münasibətilə Ali Baş Komandan İlham Əliyev bildirib: "Mənim üçün torpaqların azad edilməsindən daha ümdə vəzifə heç vaxt olmamışdır. Bütün prezidentlik dövrümü mən buna həsr etmişəm. Hər bir qərarın arxasında bu məqsəd, bu hədəf dayanmışdı - bu addım bizi qələbəyə yaxınlaşdıracaqmı, yoxsa yox. Deyirdim ki, hər birimiz hər gün qələbəni yaxınlaşdırmalıyıq. Mənim çıxışlarım var, onlar tarixdə qalır. Hər gün hər birimiz qələbəni yaxınlaşdırmalıyıq. Yaxınlaşdırdıq, hazırlaşdıq, gəldik, düşməni məğlub etdik, məhv etdik".

Prezident İlham Əliyevə olan yüksək inamın nəticəsi idi ki, xalqımızın vətənpərvər övladları onun çağırışına qoşularaq torpaqlarımızın işğaldan azad edilməsi uğrunda səfərbər olub silaha sarıldılar. Rəşadətli Azərbaycan Ordusu "Dəmir yumruq" əməliyyatında böyük şücaət göstərib xalqımızın tarixinə parlaq səhifələr yazdı. Vətən müharibəsinin ilk günlərindən başlayaraq Ali Baş Komandan İlham Əliyev əsgərlərimizin qəhrəmanlığı ilə fəxr etdiyini, qürur duyduğunu vurğulayıb. Qeyd edək ki, Azərbaycan Ordusunun müharibədə əldə etdiyi qələbə Prezident İlham Əliyevin yüksək liderlik keyfiyyətlərinin, milli maraqlara söykənən uzaqgörən siyasətinin və xalq-ordu birliyinin məntiqi nəticəsidir. II Qarabağ müharibəsində Azərbaycan qələbə qazanmaqla bölgədə yeni geosiyasi reallıq yaratdı və 30 ilə yaxındır ki, BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan məlum dörd qətnaməsinin tələblərini yerinə yetirdi.

Dekabrın 10-da Bakının Azadlıq meydanında qələbəyə həsr olunmuş Zəfər paradı Azərbaycan Ordusunun gücünü və qüdrətini bütün dünyaya göstərdi. Bu möhtəşəm tədbirdə 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər, Azərbaycan Ordusunun düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Göründüyü kimi, Heydər Əliyevin hakimiyyəti dövründə cəmiyyətin bütün sahələrində əldə olunmuş nailiyyətlər, xüsusilə ordu quruculuğu sahəsində atılan addımlar, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan fəal diplomatik mübarizə Azərbaycanı müstəqil dövlət kimi möhkəmləndirdi və ona dünya birliyində böyük nüfuz qazandırdı.

Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti, Azərbaycan Ordusunun gücü və vətəndaş həmrəyliyi nəticəsində II Qarabağ müharibəsində əldə olunan tarixi qələbə "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deyən Heydər Əliyev dühasının müdrikliyini və uzaqgörənliyini bir daha sübut etdi. Vətən müharibəsindəki şanlı qələbə Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunması ilə bağlı Ümummilli Lider Heydər Əliyevin arzularının reallaşması demək oldu.

**Mübariz QURBANLI,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri
*"Azərbaycan" qəzeti, 9 may 2021-ci il*

# "HEYDƏR ƏLİYEV İRSİ: AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ" MÖVZUSUNDAKI MƏQALƏ MÜSABİQƏSİNİN QALİBLƏRİ MÜƏYYƏNLƏŞDİRİLİB

Dini icmalar arasında Heydər Əliyevin anadan olmasının 98 illiyi münasibətilə "Heydər Əliyev irsi: Azərbaycanda dövlət-din münasibətləri" mövzusunda elan edilmiş yazı müsabiqəsinin qalibləri müəyyənləşdirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən keçirilən yazı müsabiqəsinin nəticələrinə görə, Zaqatala rayon Çobankol kənd "Cümə" məscidi dini icmasının sədri Məhəmməd Nurullayev birinci, Zərdab rayon İsaqbağı kənd məscidi dini icmasının üzvü və məscidin imamı Elgün Kərimov ikinci, Beyləqan rayonu Qaralılar kənd məscidi dini icmasının sədri Səbuhi İbadov üçüncü yerə layiq görülüblər. Füzuli rayon




"Mahmudlu-2" kənd məscidi dini icmasının sədri Sevindik Əsgərli, Ağcabədi rayon Muğanlı kənd "Seyid İsmayıl Ağa" məscidi dini icmasının sədri Süleyman Ağayev, Bakı şəhər Xəzər rayon Türkan qəsəbə "Bağlar" məscidi dini icmasının sədri Elman Həsənov isə həvəsləndirici mükafatlarla təltif ediliblər.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı qalibləri təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Qeyd edək ki, Dövlət Komitəsi hər il Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümü münasibətilə yazı müsabiqəsi keçirir.

# "NİZAMİ GƏNCƏVİNİN DİNİ-FƏLSƏFİ GÖRÜŞLƏRİNDƏ ÜMUMBƏŞƏRİ İDEYALAR" MÖVZUSUNDA ONLAYN KONFRANS KEÇİRİLİB






Mayın 26-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Yazıçılar Birliyi və AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Nizami Gəncəvinin dini-fəlsəfi görüşlərində ümumbəşəri ideyalar" mövzusunda onlayn konfrans keçirilib.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Azərbaycan poeziyasının klassiki, orta əsrlərin dahi Azərbaycan şairi Nizami Gəncəvinin bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış zəngin yaradıcılığı haqqında geniş məlumat verib. Bildirib ki, görkəmli mütəfəkkirin adının, şəxsiyyətinin və yaradıcılığının daim uca tutulması məqsədi ilə görülən işlər dövlətimizin əsas prioritetlərindən biridir. Azərbaycan intibahının ən tanınmış nümayəndələrindən biri olan Nizami Gəncəvinin yaradıcılığının həm də multikulturalizm və tolerantlıq baxımından zəngin olduğunu qeyd edən S.Salahlı diqqətə çatdırıb ki, şairin insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığında xalqlara, insanlığa və ləyaqətə hörmət, vətənpərvərlik hissləri və doğma Vətənə sevgi vurğulanır.

Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi çıxışında qeyd edib ki, dünya ədəbiyyatının parlaq nümayəndəsi olan Nizami Gəncəvi özünün ölməz, bənzərsiz yaradıcılığı ülvi hisslərin, humanizm, xeyirxahlıq, ədalət kimi nəcib keyfiyyətlərin tərənnümünə həsr edib. Mübaliğəsiz demək olar ki, Nizami dünyanın ən böyük şairləri ilə bir sırada durur və onun əsərləri bizim üçün və gələcək nəsillər üçün daim ilham mənbəyi olacaq. Əsərlərində müxtəlif xalqların həyatını təsvir edən Nizami Gəncəvinin ölməz "Xəmsə"si multikultural dəyərləri, elmi, sülh və tərəqqini təbliğ edib.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini Əlizadə Əsgərli XII əsr ictimai-siyasi və hüquqi fikrimizin ən görkəmli nümayəndəsi N.Gəncəvinin öz dövrünün və gələcək dövrlərin humanist və demokratik istiqamətli fikirlərinin, habelə sosial ədalət ideyalarının parlaq təbliğatçısı olduğuna diqqət çəkib. Ə.Əsgərli Nizaminin irfan dünyasında tutduğu yeri vurğulayaraq, əsərlərindən nümunələr gətirib, tolerantlıq münasibətlərinin ədibin bədii nümunələrində necə əks olunduğundan söz açıb.

Azərbaycan İlahiyyat İnstitutunun Dillər və ictimai fənlər kafedrasının müdiri İlkin Əlimuradov və İslamşünaslıq kafedrasının müəllimi İbrahim Quliyev mövzu ilə bağlı məruzələrlə çıxış edərək, Nizami Gəncəvi yaradıcılığında dini-fəlsəfi görüşlərdən, ümumbəşəri mənəvi dəyərlərdən danışıblar.

# "KÖNÜLLÜMÜZ OL" LAYİHƏSİNİN NÖVBƏTİ İŞTİRAKÇILARI LAYİHƏNİ UĞURLA BAŞA VURUBLAR

Mayın 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Dövlət Komitəsində təcrübə keçmiş "Könüllümüz ol" layihəsinin iştirakçıları ilə video formatda görüşüb.

Gündüz İsmayılov Prezident İlham Əliyevin gənclərin inkişafına yönələn dövlət siyasətini daim diqqət mərkəzində saxlamasından, dövlət başçısı tərəfindən dövlət orqanlarının qarşısına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq kimi vəzifələrin qoyulmasından danışıb.

Diskussiya şəraitində keçən görüşdə sədr müavini könülləri maraqlandıran sualları cavablandırıb, könüllülük fəaliyyətinin gənclərin gələcək iş həyatlarına önəmli və effektiv təsir edəcəyinə əminliyini ifadə edib.

Təcrübə kursunu müvəffəqiyyətlə başa vuran gənclərə təbriklərini çatdıran G.İsmayılov onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

1 il müddətində Dövlət Komitəsində təcrübə toplayan könüllülər göstərilən etimada görə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, DQİDK-nın könüllüləri sırasından Minarə Calalzadə Dövlət İmtahan Mərkəzinin elan etdiyi müsabiqədə uğur qazanaraq Şəki bölgəsi üzrə şöbədə işlə təmin olunub.

# “VƏTƏN MÜHARİBƏSİNDƏKİ QƏLƏBƏMİZ HƏM DƏ AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN QƏLƏBƏSİDİR”




“Şuşada keçirilən “Xarıbülbül” festivalını Azərbaycanın Ermənistan üzərində mədəni və mənəvi qələbəsinin paradı kimi xarakterizə edirəm”.

Bu fikirləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov Azərbaycan televiziyasının “Əsas məsələ” proqramında çıxışı zamanı səsləndirib. Ramazan bayramı ərəfəsində “Xarıbülbül” festivalının keçirilməsinin, Prezident İlham Əliyev tərəfindən Şuşada yeni məscidin bönövrəsinin qoyulmasının əhəmiyyətli hadisə olduğunu diqqətə çatdıran sədr müavini Şuşa şəhərinin Yuxarı Gövhər Ağa məscidində bayram namazının qılınmasından da danışıb: “Uzun illərdən sonra Şuşada ilk dəfə, özü də vəhdət formasında bayram namazının qılınması ilə dünyaya mesaj verdik ki, müxtəlif dinlərin, məzhəblərin nümayəndələrini respublikamızda bir aya gətirərək, müxtəlifliyi zənginliyə çevirmişik. Azərbaycanın bir çox bölgələrində, o cümlədən Bakı şəhərində vəhdət namazları qılınıb. İşğaldan azad olunmuş Şuşa şəhərində isə ilk dəfə idi. Bu, onu deməyə əsas verir ki, Şuşa Azərbaycanın mədəniyyət paytaxtı olmaqla yanaşı, həm də vəhdətin – dini həmrəyliyimizin paytaxtıdır”.

Azərbaycanın multikultural, tolerant ölkə olduğunu bildirən Gündüz İsmayılov vurğulayıb ki, multikulturalizm müxtəlif mədəniyyətlilik deməkdir: “Müxtəlifliyə bir gözlə baxsaq, parçalanma yarada bilər. O biri gözlə baxsaq isə, müxtəliflik zənginlik deməkdir. Zənginlik isə gücdür. 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbə həm də Azərbaycan multikulturalizminin qələbəsidir”.

# DQİDK YANINDA İCTİMAİ ŞURANIN ÜZVLƏRİ RUS PRAVOSLAV KİLSƏSİNİN BAKI VƏ AZƏRBAYCAN YEPARXİYASINDA VƏ ALBAN-UDİ XRİSTİAN DİNİ İCMASINDA OLUBLAR



Mayın 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) yanında İctimai Şuranın üzvləri Bakıdakı “Müqəddəs Jen-Mironosets” Rus Pravoslav kafedral Kilsəsini ziyarət edib, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumunun fəaliyyəti ilə tanış olublar.

Görüşdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi, protoiyerey Mefodi Əfəndiyev, İdarənin mətbuat katibi Konstantin Pominov, DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə və sədr müavini Çingiz Bayramov, üzvləri Rauf Zeyni, Vasif Sadıqlı, eyni zamanda Komitənin şöbə müdiri Yaqut Əliyeva iştirak ediblər.

Görüş zamanı Mefodi Əfəndiyev dini qurumun fəaliyyəti, ölkəmizdə mövcud olan tolerant və multikultural mühit, dövlətimizin dini konfessiyalar üçün yaratdığı şərait barədə danışıb. Bildirib ki, bu kilsə 1909-cu ildə məşhur Azərbaycan milyonçusu və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin maddi yardımı və ianələr hesabına inşa edilib. 1920-ci ildə sovet hakimiyyəti dövründə kilsə ilk bağlanan ibadət yerlərindən biri olub. Müstəqillik illərində təmir-bərpa edilən kilsənin açılış mərasimində Ulu Öndər Heydər Əliyev iştirak edib. Kilsənin bərpasında azərbaycanlı xeyriyyəçi, iş adamı Aydın Qurbanovun böyük xidmətləri olub. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumu DQİDK tərəfindən 2002-ci ildə ilk dəfə, 2009-cu ildə isə yenidən dövlət qeydiyyatına alınıb. Ölkəmizdə yaşayan rus pravoslavlarının hər zaman Azərbaycan dövləti tərəfindən diqqət və qayğı ilə əhatə olunduğunu vurğulayan M.Əfəndiyev görüş iştirakçılarını Prezident İlham Əliyevin tapşırığı ilə inşa edilən, Yeparxiyanın tərkibində fəaliyyət göstərən Pravoslav Dini Mədəniyyət Mərkəzinin fəaliyyəti haqqında da məlumatlandırıb.

İctimai Şura üzvləri bütün dünyada ksenofobiyanın, islamofobiyanın hökm sürdüyü bir dövrdə Azərbaycanda mövcud olan sabitlik, əmin-amanlıq, tolerantlıq mühitinin önəminə toxunaraq, bu sabitliyi qorumaq üçün hər kəsin səy göstərməli olduğunu vurğulayıblar. Qeyd ediblər ki, bu cür görüşlərin keçirilməsində əsas məqsəd dövlət tərəfindən qeydiyyata alınan dini konfessiyaların fəaliyyəti, dini qurumlar arasındakı əməkdaşlıq mühiti ilə daha yaxından tanış olmaqdır.

* * *

Mayın 25-də isə DQİDK yanında İctimai Şuranın üzvləri Qəbələ rayonu, Nic qəsəbəsində yerləşən Müqəddəs Yelisey adına Cotari Kilsəsini ziyarət edib, Alban-Udi Xristian dini icmasının fəaliyyəti ilə yaxından tanış olublar.



Görüşdə dini icmanın sədr müavini Rafiq Danakari və icma üzvləri, eləcə də DQİDK yanında İctimai Şuranın sədri Sevinc Alızadə, sədr müavini Çingiz Bayramov, Şura üzvləri Nüşabə Məmmədova, Vasif Sadıqlı, Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyeva iştirak ediblər.

Görüş zamanı Rafiq Danakari Cotari alban-udi kilsəsi haqqında danışaraq bildirib ki, kilsə yerli sakinlərin vəsaiti hesabına 1723-cü ildə inşa edilib. Sovet hakimiyyəti illərində fındıq anbarı kimi fəaliyyət göstərmiş kilsədə 2003-cü ildə əsaslı bərpa və yenidənqurma işlərinə başlanılıb, 2006-cı ildə tamamlanaraq dindarların istifadəsinə verilib. Qeyd edib ki, Azərbaycanda 4 minə yaxın alban-udi yaşayır və onlar tarixi Qafqaz Albaniyası dövlətinin və Alban mədəni irsinin varisləridir. R.Danakari dini icmanın maarifçilik sahəsində gördüyü işlər, dövlətin dini konfessiyaların fəaliyyətinə göstərdiyi diqqət, yaradılan şərait, eləcə də ölkəmizin bütün dünyaya nümunə sayılacaq multikultural və tolerantlıq ənənələri haqqında danışıb.

İşğaldan azad olunmuş ərazilərdəki dini məbədlərə qarşı ermənilərin törətdikləri vandallıq aktlarının dünyada misli görünməmiş hal olduğunu qeyd edən R.Danakari vurğulayıb ki, ermənilər o torpaqlarda nəinki İslamla bağlı olan tarixi, mədəni abidələri məhv ediblər, hətta Alban kilsələrini də dağıdıb, ya da saxtalaşdırıblar. Bu kilsələr, məbədlər birbaşa Alban mədəni irsi ilə bağlıdır və erməni kilsələri ilə heç bir bağlantısı yoxdur. Məqsədli şəkildə bu kilsələri saxtalaşdırıb, erməni kilsəsi kimi təqdim ediblər. Artıq dövlətimizin ərazi bütövlüyü bərpa olunub, tarixi həqiqət isə budur ki, bu gün Azərbaycan tarixi alban mədəni irsinin varisidir. R.Danakari eyni zamanda, Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə işğaldan azad olunan ərazilərimizdəki Alban abidələrini ziyarət etmələrindən və bu səfərlərin davamlı olacağından bəhs edib.

İctimai Şura üzvləri Azərbaycan Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı qətiyyətli siyasət nəticəsində ordumuzun hərbi qələbələri ilə 30 ilə yaxın müddət ərzində erməni işğalı altında qalan ərazilərimizin azad edildiyini, işğalçı ermənilər tərəfindən dağıdılan, tövlə kimi istifadə edilməklə təhqir olunan məscidlərimizlə yanaşı, Alban xristian memarlığını özündə əks etdirən əsir abidələrimizin də artıq yenidən əmin əllərdə olduğunu vurğulayıblar. Qeyd edilib ki, tarixi alban irsi haqqında həqiqətlərin dünyaya çatdırılmasında çox işlər görülməli, Azərbaycan dövləti ilə birgə Alban-Udi dini icması da bu sahədə fəaliyyətini genişləndirməlidir. Eyni zamanda, ölkəmizdəki mövcud birgəyaşayış, qarşılıqlı anlaşma, dözümlülük mühitinin qorunub saxlanılması və təşviqində bütün dini konfessiyalar cəmiyyətin digər təbəqələri ilə birgə bundan sonra da maarifçilik işini davam etdirməlidirlər. Bu istiqamətdə görüləcək işlərdə DQİDK yanında İctimai Şuranın da yaxından iştirak edəcəyi bildirilib.

İctimai Şura üzvləri dini icmaya Qafqaz Albaniyası kilsələri, eləcə də Qarabağın və Azərbaycanın digər rayonlarının maddi-mədəniyyət abidələrinin tarixindən bəhs edən videomateriallar hədiyyə ediblər.

Qeyd edək ki, səfər çərçivəsində İctimai Şura üzvləri Qəbələ rayonu Əmirvan kəndində Azərbaycan Ordusunun Vətən müharibəsində qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış polkovnik-leytenantı, “Vətən Müharibəsi Qəhrəmanı” Əfqan Abdurahmanovun məzarını da ziyarət ediblər.



# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyada özündən söz etdirməyi bacardı. Əminliklə deyə bilərəm ki, bu məğrurluğun əsasında dayanan ən mühüm amil xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevrilməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq çox böyük bir tarix yazdılar. Ümumiyyətlə, torpağı vətən edən, onu müqəddəsləşdirən, özünü bu yolda qurban verən şəhidlərdir. Bu səbəbdən, onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzetinin 2021-ci ildəki ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verir, onların şərəfli ömür yollarına işıq tutmağa çalışır.



## Abbasəliyev Hüseyn Adil oğlu

Şəhid Abbasəliyev Hüseyn Adil oğlu 2000-ci il oktyabrın 22-də Mingəçevir şəhərində dünyaya gəlib. 2006-cı ildə Mingəçevir şəhər 14 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub və 2017-ci ildə şəhər 1 nömrəli tam orta məktəbin 11-ci sinfini bitirib. Uşaqlıqdan hərb sənətinə böyük maraq göstərən Hüseyn hər zaman ailə üzvlərinə hərbçi olacağını deyirmiş. 2018-ci ilin oktyabrın 23-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Mingəçevir şəhər şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılan qəhrəmanımız Silahlı Qüvvələrin Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Hüseyn düşmənlə üzbəüz "Soyuq" adlanan dağ postunda xidməti ərzində öz vəzifəsinin öhdəsindən layiqincə gələrək, ona həvalə edilmiş silah və hərbi texnikaların taktiki-texniki göstəricilərini dərindən öyrənib. Nümunəvi əsgər kimi daim komandanlığın diqqət mərkəzində olan Hüseyn müxtəlif təltiflərə layiq görülüb. O, 2020-ci ilin aprelində hərbi xidmətini uğurla başa vuraraq geri dönüb. 2020-ci ilin 12 iyulunda düşmənin təxribatı nəticəsində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gedən şiddətli döyüşlər Hüseynin də həyatının dönüş nöqtəsi olub. Milli Qəhrəman general-mayor Polad Həşimovun şəhadətindən sonra o, SHXÇDX-ya ərazi bütövlüyü uğrunda başlayacaq mümkün müharibədə iştirak etmək üçün müraciət edib və müvafiq formada qeydiyyata alınıb.

2020-ci ilin sentyabrın 21-də SHXÇDX tərəfindən ehtiyatda olan hərbi vəzifəlilərin müxtəlif ixtisaslar üzrə təlim toplanışlarına çağırılması həyata keçirilərkən SHXÇDX-nın Mingəçevir şöbəsi tərəfindən Hüseyn də təlimlərə çağırılıb. Bir neçə gün təlimlərdə iştirak etdikdən sonra isə 2020-ci il sentyabrın 27-dən - Vətən müharibəsi başlayan ilk gündən Tərtər istiqamətindən döyüşlərə qatılıb.

Şəhidimizin atası Adil Abbasəliyev deyir ki, inanmazdım, mənim uşaqlığım dövründə başlayan ağrı-acılı müharibə nə vaxtsa övladımın qanı bahasına bitəcək: "Əsgərlikdən yenicə gəlmişdi. Heç mənə evdə hərbiyə gedəcəyi barədə bir söz də demədi. Mən işdə olmuşam, bir də eşitdim ki, könüllü olaraq orduya yazılıb. Mənim də oğlum digər şəhidlərimiz kimi Vətənin müdafiəsinə yollanıb. 2020-ci ilin sentyabrın 29-da Suqovuşan-Talış istiqamətlərində gedən döyüşlərdə düşmən postunu ələ keçirərkən şəhid olub. Mən bir ata kimi Vətən qeyrəti çəkən oğulların qarşısında baş əyirəm. Bizim oğullarımız ölümün gözünə dik baxdılar. İndi bütün dünya 44 günlük zəfər savaşının iştirakçılarının qəhrəmanlığından, onların doğma elə-obaya bağlılıqlarından, göstərdikləri rəşadətlərdən danışır".

Hüseyn 2020-ci il sentyabrın 29-da Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Şəhidimiz subay idi. Ailədə iki qardaş olublar.

İgidliyi və cəsurluğu ilə fərqlənən əsgər Abbasəliyev Hüseyn Adil oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.



## Abbasov Ceyhun Natiq oğlu

Şəhid Abbasov Ceyhun Natiq oğlu 1986-cı il fevralın 8-də Bakı şəhərində doğulub. Orta təhsilini Bakı şəhəri Elşad Yəhyayev adına 56 saylı tam orta məktəbdə alıb. Burada 9 il oxuduqdan sonra peşə məktəbinə qəbul olan Ceyhun oranı müvəffəqiyyətlə bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılıb. Həqiqi hərbi xidmətini də uğurla başa vurub və bundan sonra yarımçıq qalan arzusunu - peşəkar hərbçi olmaq istəyini gerçəkləşdirmək qərarına gəlib. Beləliklə, hərbi xidmətdə qalmağı seçən Vətən oğlu, respublikanın müxtəlif bölgələrində, cəbhəyanı ərazilərdə və bilavasitə ön cəbhədə xidmət edib: Beyləqan, Füzuli, Tərtər, Ağdam, Gədəbəy... Son xidmət yeri isə Şəmkir rayonundakı "N" saylı hərbi hissənin əks-həmlə taboru olub. Təcrübəli hərbçi taborun snayper qrupunun komandiri idi.

O, qardaş Türkiyədə komando kurslarında təkmilləşib və xüsusi təyinatlı snayper kimi şöhrət qazanıb. Hərbçi dostları arasında sərrast nişançı kimi tanınan Ceyhun Abbasov xidmət etdiyi dövrdə 50-yə yaxın xüsusi döyüş tapşırığını yerinə yetirib.

Ceyhun Azərbaycan Prezidenti adından, müdafiə nazirinin 24 iyun 2013-cü il tarixli əmri ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalı ilə təltif olunub. 2016-cı ilin aprel döyüşlərində Lələtəpə istiqamətindəki qəhrəmanlığına görə cənab Prezidentin 19 aprel 2016-cı il tarixli Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

Ceyhun 2020-ci ilin iyulunda dövlət sərhədinin Tovuz istiqamətində düşmən hücumunun qarşısını alarkən fədakarlığı ilə fərqlənib, dörd erməni hərbçini zərərsizləşdirib. Hərbi təxribatlarına ara vermək istəməyən düşmənin müddətdən artıq hərbi qulluqçusu Aşot Mikaelyanı isə boğaz nahiyəsindən vuraraq, nə qədər sərrast atıcı olduğunu bir daha nümayiş etdirib. Ceyhun Aşotu zərərsizləşdirəndə gecə saat 01:10 radələri olub... Bu hadisə mətbuatda 14 iyulda şəhid olan gizir Yaşar Babayevin qisasının alınması kimi tirajlanıb...

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Tovuz döyüşlərində göstərdiyi şücaətə görə Ceyhun Ababsova xüsusi hazırlanmış qol saatı bağışlayıb və başqa mükafatlarla təltif edib.

Qəhrəman gizirimiz Vətən müharibəsində də xüsusi fədakarlığı ilə seçilib. Şəhidimizin əmisi mayor Namiq Abbasovun verdiyi məlumata görə, 2020-ci il sentyabrın 28-də "Elşən" zirvəsi uğrunda gedən döyüşlərdə ayaq və bel nahiyəsindən yaralanan Ceyhun təxliyədən imtina edib. O, öz yaralarını sarıyıb və ağrıkəsici iynədən istifadə edərək, döyüşə davam edib. Yaralı halda belə, düşmənə zərbə vurub, döyüş yoldaşının qumbaraatanını götürərək, dörd erməni atəş istehkam məntəqəsini partladıb. Qorxmaz hərbçimiz erməni postuna girərkən şəhid olub.

Qəhrəman şəhidimiz 12 dekabr 2020-ci ildə İkinci Fəxri Xiyabanda dəfn edilib.

Şəhid gizirimiz ailəli idi, 2 övladı yadigar qalıb. Oğlu Ərtoğrul Gəncənin Kəpəz rayonunda yerləşən 17 saylı tam orta məktəbin birinci sinif şagirdidir, qızı Kəmalə isə hazırlıq sinfinə gedir.

İgidliyi və qəhrəmanlığı ilə adını Vətən tariximizin şanlı səhifəsinə yazan gizir Abbasov Ceyhun Natiq oğlu ölümündən sonra iştirak etdiyi döyüş əməliyyatlarında və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilib.



## Abbaslı Arif Firuz oğlu

Şəhid Abbaslı Arif Firuz oğlu 1993-cü il dekabrın 15-də Şərur ra-yonunun (İndiki Kəngərli rayonu) Qıvraq qəsəbəsində anadan olub. 2000-2009-cu illərdə orta təhsilini Qıvraq qəsəbə tam orta məktəbində alıb. Dərslərini əla oxuyan Arif Respublika Olimpiadasında Kimya fənni üzrə üçüncü olub. Ailəsi onu gələcəkdə həkim görmək istəsə də, o, israrla hərb yolunu seçir. 2009-cu ildə Naxçıvan şəhər Heydər Əliyev adına Hərbi Liseyə yüksək balla daxil olub. Liseyi birinciliklə bitirdiyi üçün fəxri kötüyə adı həkk edilib.

2012-ci ildə Hərbi Liseydən məzun olan Arif Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunub. 2016-cı ildə AAHM-i bitirib leytenant rütbəsi ilə tağım komandiri kimi ilk xidmətinə başlayıb. Qısa müddət sonra Xüsusi Təyinatlı Qüvvələrin kursuna daxil olub. Altı aylıq kursu uğurla bitirən Arif xidmətini Azərbaycan Respublikası Xüsusi Təyinatlı Qüvvələrində davam etdirib. Müxtəlif vaxtlarda Türkiyədə və Azərbaycanda komando, dağçılıq, xizəkçilik, üzgüçülük və s. kurslarda iştirak edib.

XTQ-nin qrup komandiri olan Arif kəşfiyyatçı kimi kartoqrafiyanı, topoqrafiyanı çox yaxşı bilirdi. Savadı və idarəetmə qabiliyyəti ilə seçilən Arifin döyüş yolu Murovdağdan başlayıb. Murov yüksəkliyi işğaldan azad edildikdən sonra onun təmsil olunduğu Xüsusi Təyinatlı Qüvvələrimiz cəbhənin cənub istiqamətində döyüşlərə davam edib. Cəbrayıl şəhəri işğaldan azad edildikdən sonra Arif Füzuli və Hadrut istiqamətlərində döyüşüb. Hadrut döyüşlərində düşmən həmləsini yararaq, yaralı döyüş yoldaşlarına kömək edən Arif Hadruta ilk daxil olan hərbçilərdən biri olub. Tabeçiliyindəki döyüş yoldaşlarını qorumaq üçün özünü önə ataraq, düşmənin üzərinə gedib. 20 nəfərə yaxın ermənini təkbaşına məhv edib. Hadrut əməliyyatının uğurlu keçməsində böyük rolu olan Arif oktyabrın 12-də Füzuli uğrunda döyüşlərdə düşmənə sarsıdıcı zərbələr vurulmasında böyük şücaət göstərib. Lakin həmin döyüş əsnasında düşmənin snayper gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhidimizin son sözləri "Qızımı heç 3-4 ay olsa da, görə bilmədim" olur.

Baş leytenant Arif Abbaslı 12 dekabr 2020-ci ildə İkinci Fəxri Xiyabanda dəfn edilib.

Şəhidimiz ailəli idi. Onun Ləman adlı bir qızı var.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərdiyinə görə baş leytenant Abbaslı Arif Firuz oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları və "Qarabağ" ordeni ilə təltif edilib.

**Hazırladı: Ramil Hikmət**

# DÖVLƏT KOMİTƏSİ JURNALİSTLƏR ARASINDA "AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ: 20 İLLİK ZAMAN KƏSİYİNDƏ" MÖVZUSUNDA YAZI MÜSABİQƏSİ ELAN EDİR

**I. Ümumi müddəalar**

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaranmasının 20 illiyi münasibətilə "Azərbaycan Respublikasında dövlət-din münasibətləri: 20 illik zaman kəsiyində" mövzusunda yerli kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında yazı müsabiqəsi elan edir.

**II. Mükafatlandırma**

I yer - 1 nəfər - 800 manat

II yer - 2 nəfər - 600 manat (hər biri)

III yer - 3 nəfər - 400 manat (hər biri)

Həvəsləndirici mükafat – 6 nəfər (hər biri) – 200 manat

Müsabiqə mükafatçılarının adları 21 iyun 2021-ci il tarixində açıqlanacaq.

**III. Müsabiqə şərtləri**

Müsabiqəyə təqdim olunmuş yazılarda üstünlük veriləcək:

Materialların ümumən mövzunu dolğun əhatə etmə səviyyəsinə;

Analitik keyfiyyətlərə, faktların və məsələlərin düzgün təhlilinə;

Faktlardan istifadə xüsusiyyətlərinə və araşdırmanın keyfiyyətinə;

İfadə vasitələrinin zənginliyinə;

Oxucu üçün informasiyalılıq dərəcəsinə;

Qabaqcıl dünya təcrübəsi ilə məzmunlu müqayisənin aparılmasına.

Müsabiqəyə 27 may 2021-ci il tarixindən 17 iyun 2021-ci il tarixinədək qəzet, jurnal və informasiya agentliklərində, həmçinin xəbər saytlarında yayımlanan yazılar buraxılacaq.

Müsabiqə üçün dil məhdudiyyəti nəzərdə tutulmur;

Yazılar 9-11 min işarədən (1 A3 formatlı qəzet vərəqindən) çox olmamalıdır;

Yazıda "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaranmasının 20 illiyi münasibətilə "Azərbaycan Respublikasında dövlət-din münasibətləri: 20 illik zaman kəsiyində" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur" qeydi olmalıdır.

**Qeyd:**

Yazı müəllifi konkret kütləvi informasiya vasitəsində çalışmalıdır.

Müsabiqə üçün təqdim ediləcək material müəllifin çalışdığı KİV-də yayımlanmaya da bilər.

**IV. Yazıların təqdim edilməsi**

Müsabiqə üçün yazıların təqdimatı 2 yolla aparılır – şəxsən və elektron qaydada.

1. Yazılar şəxsən təqdim edilərkən təqdimat zərfində yer almalıdır:

- yazı təqdim edən şəxsin konkret kütləvi informasiya vasitəsində işlədiyini təsdiqləyən sənədin surəti;
- yazı təqdim edən şəxsin şəxsiyyət vəsiqəsinin surəti;
- yazı təqdim edən şəxsin əlaqə vasitələri – ev və iş telefonu, mobil telefonu;
- müsabiqə üçün verilmiş yazının getdiyi qəzet və jurnalın 1 nüsxəsi;
- materialın yazılı formada A4 formatlı kağız vərəqində 3 nüsxəsi (nüsxələrdə müəllifin adı göstərilməməlidir);
- diskdə materialın elektron forması (Times New Roman şriftində, müəllifin adı qeyd olunmaqla);
- yazı elektron media resursunda yayımlanıbsa, diskdə yazının linki göstərilməlidir.

2. Yazılar elektron qaydada təqdim edilərkən aşağıdakılar nəzərə alınmalıdır.

Müsabiqəyə yazılar press@scwra.gov.az elektron ünvanına göndərilməlidir.

**Təqdimatda yer almalıdır:**

Müsabiqə yazısı ("Word" faylında, imzasız);

Müsabiqə yazısının yayımlandığı qəzetin, jurnalın nüsxəsi (PDF, JPG, yaxud "Word" faylında);

Yazı elektron media resursunda yayımlanıbsa, bunu təsdiqləyən "link";

Yazı müəllifinin şəxsiyyət vəsiqəsi, iş vəsiqəsi və ya əmək kitabçasından müəllifin KİV-də çalışdığını təsdiqləyən çıxarış (PDF, JPG, yaxud "Word" faylında);

Yazı müəllifinin əlaqə vasitələri (PDF, JPG, yaxud "Word" faylında) əlavə olunmalıdır.

Müsabiqə üçün yazılar həm şəxsən, həm də elektron poçt vasitəsilə 27 may 2021-ci il tarixdən 17 iyun 2021-ci il tarixinədək, həftənin iş günləri saat 11.00-dan 17.00-dək Bakı şəhəri, Əhməd Cavad küçəsi, 16 ünvanında qəbul ediləcək.

**Qeyd:**

Təqdimat prosesində müsabiqə şərtlərinin hər hansı birinin yerinə yetirilməməsi qaydaların pozulması kimi qiymətləndiriləcək və yazı qəbul edilməyəcək.

**Əlaqə:**

(012) 437 31 15

# AZƏRBAYCANIN TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİ SIRASINDA MƏSCİDLƏRİN YERİ



Azərbaycan əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil etdiyindən tarixin müxtəlif dövrlərində ayrı-ayrı yaşayış məntəqələrində möminlərin ibadəti üçün məscidlər tikilmişdir. Rəsmi statistikaya görə, Azərbaycan ərazisində ən qədim məscid hesab olunan Şamaxı "Cümə" məscidi 743-cü ildə inşa edilmişdir.

Tarixin müxtəlif dövrlərində dağıntılara məruz qalan "Cümə" məscidi sonradan təmir-bərpa olunmuşdur. Məscid sonuncu dəfə 1918-ci ilin Mart soyqırımı zamanı ermənilər tərəfindən yandırılaraq dağıdılmışdır. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Şamaxı "Cümə" məscidi sonuncu dəfə 2010-2013-cü illərdə restavrasiya olunmuşdur. 17 may 2013-cü il tarixində isə Prezident İlham Əliyevin və Qafqazın bütün din xadimlərinin iştirakı ilə məscidin açılış mərasimi keçirilmişdir.

Respublikamızın memarlıq abidələri sırasında məscidlər mühüm yer tutur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 saylı qərarına əsasən, ölkədə qeydə alınmış 6308 tarix və mədəniyyət abidəsindən 510-u məsciddir. Bu məscidlərin 47-si ölkə, 463-ü isə yerli əhəmiyyətli memarlıq abidəsidir.

Əhalisinin sayı ilə nisbətdə məscidlərin sayına görə birinci yerdə Ordubad şəhəri durur. Belə ki, 12 min nəfər əhalisi olan Ordubad şəhərində 21 məscid qeydə alınmışdır. Ölkə və yerli əhəmiyyətli memarlıq abidəsi olan məscidlərin şəhər və rayonlar üzrə təsnifatı aşağıdakı kimidir.

**Ölkə əhəmiyyətli məscidlər:**

Ağdam – 1, Bakı – 30, Bərdə - 1, Balakən – 1, Culfa – 1, Gəncə - 2, Hacıqabul -1, Qax – 2, Quba – 2, Masallı – 1, Ordubad – 1, Şamaxı – 1 ("Cümə"), Şuşa – 1.

Yerli əhəmiyyətli məscidlər:

Abşeron – 11, Ağdam – 4, Ağdaş – 4, Ağsu - 2, Ağcabədi – 1, Ağstafa – 6, Astara - 12, Bakı – 50, Balakən – 5, Bərdə - 2, Babək – 7, Cəbrayıl – 5, Cəlilabad – 1 (Hasıllı kənd məscidi), Culfa – 1, Füzuli – 16, Gəncə - 12, Goranboy – 2, Göyçay – 3, Xaçmaz – 4, İsmayıllı – 12, Qazax – 2, Qax – 16, Qəbələ - 4, Qobustan – 1, Quba 41, Qusar – 14, Qubadlı – 7, Laçın – 2, Lerik – 1 (Lüləkəran/Lüəkon kənd məscidi), Lənkəran – 32, Masallı – 49, Naxçıvan – 1, Neftçala – 1 (Xıllı qəsəbə məscidi), Oğuz – 5, Ordubad – 32, Sabirabad – 3, Salyan – 1, Sədərək – 1, Şamaxı – 2, Şəki – 13, Şəmkir – 3, Şuşa – 12, Tərtər – 4, Tovuz – 6, Zaqatala - 38, Zəngilan – 4.

Cənub bölgəsində ölkə əhəmiyyətli memarlıq abidəsi olan yeganə məscid Masallı rayonundakı Qızılağac kənd məscididir (XIX əsr, inv: 313). Qızılağac kənd sakinlərinin qənaətinə görə, kənddə məscissd XVI əsrdə tikilmişdir.

Sovet dövründə Azərbaycanda ateizm, allahsızlıq ideologiyası hökm sürdüyündən məscidlər bağlanmış, ölkə ərazisində cəmi 17 məscid fəaliyyət göstərmişdir.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra milli-mənəvi dəyərlərin inkişafı və qorunmasında mühüm rol oynayan məscidlər cəmiyyət həyatındakı yerini yenidən geri qaytarmış, qəzalı vəziyyətdə olan ibadət ocaqları bərpa olunmuş və yeniləri inşa edilmişdir. Bunun nəticəsi olaraq hazırda respublikamızda 2250-dən çox məscid vardır ki, bunun da 530-u cənub-şərq bölgəsində, konkret olaraq 32-si Astarada, 108-i Cəlilabadda, 83-ü Lənkəranda, 99-u Lerikdə, 140-ı Masallıda, 68-i isə Yardımlıda yerləşir.

**İldırım ŞÜKÜRZADƏ,**
*Lənkəran rayonunun Havzava kənd tam orta məktəbinin müəllimi, tədqiqatçı-tarixçi*

**Redaksiyadan:** Azərbaycanın şəhər və rayonlarının məscidləri üzrə ilk kitab 2019-cu ildə işıq üzü görmüşdür. "Lənkəran məscidləri" adlanan kitabın müəllifi İldırım Şükürzadədir.

# "KƏŞKÜLÜN-NUR" ƏSƏRİ ADƏT-ƏNƏNƏLƏRİMİZİN DAŞIYICISI KİMİ

Molla Məhəmməd Naxçıvaninin elmi-fəlsəfi mənbələrə söykənən "Kəşkülün-Nur" ("Nur qabı") kitabı adət-ənənələrimizi yaşatmaqla bərabər, milli ruhun inkişafına təkan verən və milli varlığımızın qüdrətlənməsində olduqca əhəmiyyətli tədqiqat əsəridir.

Əsər XIX əsrin sonlarında qələmə alınsa da, tarixi baxımdan əvvəlki dövrlərin hadisələri ilə zəngindir. Əsərdə bir çox bəşəri ideyalar, saf və sağlam insani prinsiplər, elmi-fəlsəfi idraka söykənən hərəkət və davranış tərzi, təfəkkür metodunun bir çox zəruri formaları, fəlsəfi funksiyaları, mənəvi-ruhi sferaların, mədəni qaydaların və bütövlükdə əxlaqi prinsiplərin müxtəlif növləri öz əksini tapmışdır. Burada Məhəmməd peyğəmbər (s) barədə qeyd olunan bir rəvayətin ətraflı şəkildə izah edilməsi diqqəti çəkir. Müəllifin rəvayətə əsasən xalqımızın milli-mənəvi dəyərlərinə də işıq tutması olduqca maraqlıdır.

Məhəmməd Naxçıvani istinadlara əsasən yazır ki, bir gün Allah Rəsulu (s) Əli əleyhissalamla söhbət etmək üçün onlara gəlir. Ancaq Fatimeyi-Zəhradan onun evdə olmadığını öyrənir. Rəsulullah (s) da nəvələri Həsən və Hüseyni qucağına alıb, əzizləyir. Bu zaman Salman Farsi də gəlib çıxır. Həzrət Məhəmməd (s) ona izin verdikdən sonra əyləşir. Həzrət Fatimə süfrə salaraq, üzərinə bir kasa, içində bal və nazik bir tük qoyur. Həzrət Peyğəmbər (s) Salman Farsiyə buyurur ki, bunun mənasını şərh et. Salman Farsi deyir: "Dindar şəxs bu kasadan daha parlaqdır, onun imanı bu baldan daha şirindir, ancaq vəfat edəndə imanlı qəbrə getmək bu tükdən daha nazikdir". Həzrət Məhəmməd əhsən deyir.

Əsərdə verilən bu açıqlama kamil insanın mənəvi saflığından xəbər verir. İnsani keyfiyyətlərə malik olan ruhani şəxsin sifəti, təbii ki, işıqlı və nurlu olmalıdır. Üzüqara olmaq mömünin sifətlərindən deyildir. Çünki mömünin baldan şirin imanı onun üzünün nurlu olmasının səbəbidir. Həmçinin məntiqi baxımdan belə hasil olur ki, kamil insanın nəfsani istəkləri onun tükdən nazik hesab edilən imanlı həyatdan köçməsinə böyük əngəldir. Çünki nəfsi istəklər insanın böyük düşmənidir.

Sonra Allah Rəsulu (s) nəvəsi Həsənə işarə edir. İmam Həsən ərz edir: "Padşahlıq bu kasadan daha parlaqdır, məmləkətin mənafeyini padşahlıqda sərf etmək bu baldan daha şirindir və padşahlıqda ədalətli olmaq bu tükdən daha nazikdir".

Hər bir rəhbərliyin öz məsuliyyəti olduğu kimi, padşahlıq vəzifəsinin də öz ciddi yanaşma metodu və idarətmə tərzi var. Belə ki, padşahlıq millətin, dövlətin görünən nurlu simasıdır. Ona idarə etdiyi ölkə, məmləkət və orada yaşayan insanların mənafeyi üçün səy göstərmək şirin və şərəflidir. Təbii ki, rəiyyətin hamısını tam özündən razı salmaq çətin və məşəqqətli olduğu üçün əsərdə ədalət prinsipinin tükdən nazik və incə olduğu haqlı şəklində vurğulanır.

Daha sonra İmam Hüseyn ərz edir: "Elm bu kasadan daha parlaqdır və elmi anlamaq bu baldan daha şirindir, amma elmə əməl etmək bu tükdən daha nazikdir". Rəsulullah (s) hər ikisinə əhsən deyir.

Elmin kasadan daha parlaq olması, elmi anlamağın balın şirinliyindən üstünlüyü və elmə əməl etməyin tük qədər nazik olması şair və yazıçılarımız tərəfindən də qələmə alınmışdır. Hətta XV əsr Azərbaycan sufi mütəfəkkirlərindən Dədə Ömər Rövşəni özünün "Miskinlik kitabı" əlyazmasında bildirmişdir:

*Əməl eyləməsə elm ilə alim,*
*Olur cahil, olub nəfsinə zalim.*

Həmçinin Azərbaycanın dahi şairi Nizami Gəncəvi də əsərlərində elmə çox böyük önəm vermişdir:

*Elm ilə, ədəblə tanınar şəraf,*
*Mirvari olmasa, nə lazım sədəf.*
*Qüvvət elmdədir, başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz.*
*Hər uca rütbədən biliniz fəqət,*
*Alimin rütbəsi ucadır əlbət.*
*Elm öyrənməyi ar bilən hər kəs,*
*Dünyada mərifət qazana bilməz.*

Elm həqiqəti öyrənir, həyatın qanunauyğunluqlarını, təbiətin sirlərini bir-birinin ardınca kəşf edir. Elmlə məşğul olmaq, hər şeydən əvvəl, həqiqəti axtarmaq deməkdir, həqiqəti axtarmaq isə gözəlliyin sorağında gəzmək, onu kəşf etmək deməkdir. Çünki həqiqət gözəllikdən, gözəllik isə həqiqətdən ayrı deyildir. Gözəllik duyğusu varlığın inikası, mövcud həqiqətin idrakıdır. İnsan bütün varlığı ilə gözəlliyə can atır, deməli, həqiqi gözəlliyi duymaq, dərk etmək üçün elm öyrənmək vacibdir.

Elm həm də dünyagörüşüdür, insanı yüksəldən mənəvi ucalıqdır. İnsan yalnız elmi, bacarığı ilə başqalarından fərqlənə, onlara nisbətən üstün mövqeyə malik ola bilər.

Əsərdə verilən bu məntiqi üsul elmin dəyərini, onu anlamağın zəruriliyini və əməl etməyin vacibliyini bir məqsəd kimi qarşıya qoyur.

Allah Rəsulu (s) sonra Fatimeyi-Zəhraya işarə edir və o belə deyir: "Salehə övrətlər bu kasadan daha parlaqdır, onların nəzərlərində həya və abır bu baldan daha şirindir, amma naməhrəmlərin gözlərindən özlərini saxlamaq və məstur (qapalı) etmək bu tükdən daha nazikdir".

Həqiqən, bu mənalar qadının ismətindən, gözəlliyindən və ana kimi müqəddəsliyindən xəbər verən məntiqi yanaşmalardan biridir.

Bu əsnada Həzrət Əli (ə) də yanında əshabdan dörd nəfərlə gəlib çıxır. Fatimeyi-Zəhra pərdə arxasına çəkilir. Həzrət Əli (ə) salam verir və Rəsulullahdan (s) salamına cavab alır. Həzrət Məhəmməd (s) buyurur ki, ya Əli xoş gəldin: "Çox maraqlı söhbətimiz var. Növbə indi sənindir". Ancaq Əmirəlmöminin bildirir ki, əvvəlcə səhabələr öz fikirlərini ərz etsinlər, sonra mən şərh edərəm. Allah Rəsulu (s) icazə verir.

Əvvəlcə Abuzər ərz edir: "Ya Rəsulallah (s) sənin şəriətin bu kasadan daha parlaqdır, şəriət yolu ilə getmək bu baldan daha şirindir, amma şəriətə əməl etmək bu tükdən daha nazikdir".

Yasir Əmmar ərz edir: "Quran bu kasadan daha parlaqdır, tilavəti-Quran (Quranı gözəl avazla oxumaq) bu baldan daha şirindir, amma Quranın əhkamına (hökmlərinə) əməl etmək bu tükdən daha nazikdir".

Cabir Ənsari ərz edir: "Namaz bu kasadan daha parlaqdır, namaz qılmaq bu baldan daha şirindir və namazda hüzuri-qəlbilən olmaq bu tükdən daha nazikdir".

Abdullah ərz edir: "Zəkat bu kasadan daha parlaqdır, zəkatı diqqətlə əda etmək bu baldan daha şirindir və zəkatı müstəhəqqə (haqqı olan, ehtiyacı olan, möhtac) yetirmək bu tükdən daha nazikdir". Həzrət Məhəmməd (s) hər birinə əhsən deyir.

Növbə Əmirəlmöminə çatır və o ərz edir: "Qonaq bu kasadan daha parlaqdır, qonağa izzəti-ehtiram eyləmək bu baldan daha şirindir, amma qonağı özündən razı salmaq bu tükdən daha nazikdir".

Allah Rəsulu (s) əhsən deyərək buyurur: "Həqiqətən, ya Əli. Hər nə ki, səndən eşitdim hamısı səxavətdəndir".

Göründüyü kimi, adət-ənənələrimizin rəmzi olan qonaq qarşılamaq və qonağı razı halda yola salmaq keyfiyyətləri əsərdə öz əksini tapmışdır. Belə ki, rəvayət çərçivəsində də, adət-ənənələrimizə əsasən də qonağın gəlişi xeyir-bərəkət rəmzi, ona göstərilən izzət və ehtiram şirinlik kimi, onu özündən razı salmaq isə incəlik kimi qeyd olunmuşdur.

Əli əleyhissalam ərz edir: "Ya Rəsulallah (s), indi növbə Sizindir". Rəsuli-Xuda (s) buyurur: "Mərifəti-həqq bu kasadan daha parlaqdır, mərifəti-həqqi anlamaq bu baldan daha şirindir, amma mərifətə əməl etmək bu tükdən daha nazikdir".

Həzrət Peyğəmbər (s) istəyir ki, əlini kasaya uzatsın. Ancaq Cəbrail ərz edir: "Ya Rəsulallah (s), siz bu şərhi bəyan edən vaxtdan mən sizin xidmətinizdə hazıram. Mənim də bir şərhim var. Xudavəndi-Təbarak və Təala bu kasadan daha parlaqdır, Allahın əmri və rızası ilə rəftar etmək bu baldan daha şirindir, amma Allahı özündən razı salmaq bu tükdən daha nazikdir".

Daha sonra Cəbrail əlavə edir: "Ya Rəsulallah (s), bu kasanı mən Allahın hökmü ilə behiştdən gətirdim. Bu tükü filan Hurüleynin (behiştin huri gözlü qadını) zülfündən ayırdım və bu kasanın üstündən çəkdim. Allahın məqsədi bu idi ki, görsün, Siz bu kasanın üstündə hansı sözləri bəyan edəcəksiniz".

**Səbuhi İBRAHİMOV,**
AMEA-nın Naxçıvan Bölməsində
Əlyazmaların kataloqlaşdırılması şöbəsinin müdiri

# İSRAİLLƏ FƏLƏSTİN ARASINDAKI GƏRGİNLİK QARŞILIQLI ANLAYIŞ VƏ DOSTLUQ KÖRPÜLƏRİNİ DAĞIDA BİLƏR

ABŞ-da fəaliyyət göstərən bir sıra dinlərarası dialoq təşkilatları İsraillə Fələstin arasında yenidən baş qaldırmış gərginliyin illərdir qurulmağa çalışılan dostluq və qarşılıqlı anlayış körpülərini dağıdacağına dair narahatlıqlarını bildiriblər. Bu barədə "religionnews" xəbər verib.



Amerikalı müsəlman və yəhudilər hiddət, qorxu və qəzəb qığılcımlarının yenidən alovlanmasının qarşısını almaq üçün böyük səy göstərirlər. Nyu-Cersidəki "Salam Şalom Bacılığı" (Sisterhood of Salaam Shalom) təşkilatından bildiriblər ki, onlar müsəlman və yəhudi qadınlar arasında həmişə etibar və dostluq münasibətləri qurmağa çalışıblar. Konfessiyalararası təşkilatın həmtəsisçisi Atiyə Əftab müsəlman və yəhudi qadınları olaraq baş verən haqsızlığa və hökumətin qərəzli mövqeyinə qarşı çıxdıqlarını söyləyib.

Los-Ancelesdə fəaliyyət göstərən digər müsəlman-yəhudi birliyi – "Yeni Meydan" (New Ground) təşkilatının icraçı direktoru Əzizə Həsən qeyd edib ki, müxtəlif siyasi baxışlara sahib olan amerikalı fələstinlilər müsəlman və yəhudilər arasındakı gərginliyi azaltmaq üçün video-görüş keçiriblər. "Yaşayış yerlərində zorakılığın getdikcə şəxsi səviyyəyə çatmasından qorxuruq. Hələ ki, bir çıxış yolu görmürük, ancaq inanırıq ki, bir-birimizlə anlaşmağın yolu var. Hər kəsi qarşı tərəfi mərhəmət və anlayışla dinləməyə çağırırıq".

Yəhudi əsilli Andrea Hodos da vurğulayıb ki, döyüşən tərəflərin bir-birini eşitməsini istəyirik. Qəlblərimizi yumşaldan yeganə şey bu çətin anda birlikdə olmaqdır.

Kaliforniyadakı "Yəhudi Sülh Səsi" hüquq müdafiə təşkilatı İsrailin fələstinlilərə qarşı siyasətini tənqid edib. Təşkilatın icraçı direktoru Stefani Foks bildirib ki, amerikalı müsəlman icmaları ilə sıx əməkdaşlıq edirik. "İsrailin müqəddəs Ramazan ayında göstərdiyi zorakılıq bizi dəhşətə gətirdi".

Baş verən qarşıdurma Qüdsdə yerləşən və gənc israillilərlə fələstinliləri birləşdirməyə çalışan dünyamiqyaslı "Kids4Peace" təşkilatının fəaliyyətinə təsir göstərsə də, dayandırmayıb. Təşkilatın direktoru İttay Fleşer: "Qüds hamımız üçün etibarlı ev olmaqdan çıxarsa, onda o, hər birimizi qəbul edən və sevən Böyük Şəhər vəzifəsindən məhrum olacaqdır".

# QISA-QISA

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini may ayı ərzində də davam etdirmişdir. Pandemiya ilə əlaqədar Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən videokonfrans formatında maarifləndirmə tədbirləri keçirilmişdir.*

**Cari ay ərzində bu qəbildən olan tədbirlər:**

**4 may** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Mingəçevir Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən RİH və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə "Pandemiya şəraitində dini mərasim, ayin və tədbirlərin təşkili" mövzusunda;

**5 may** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və QMİ-nin Zaqata rayon qazılığının birgə təşkilatçılığı ilə "Narkomaniya - ümumbəşəri bəla" mövzusunda;

**6 may** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Zərdab Rayon Mədəniyyət Mərkəzi, Heydər Əliyev Mərkəzi və Zərdab Rayon Gənclər və İdman İdarəsinin (RGİİ) birgə təşkilatçılığı ilə "Ramazan bayramı - birlik və bərabərlik bayramı" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və QMİ-nin Lənkəran bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98 illiyi münasibətilə "Milli-mənəvi dəyərlərimizin qorunmasında Heydər Əliyevin rolu" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Göyçay RİH-in birgə təşkilatçılığı ilə "Xalqımızın tolerantlıq ənənələrinin və multikulturalizm siyasətinin milli həmrəyliyimizin möhkəmlənməsindəki önəmi" mövzusunda;

**7 may** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçlığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda;

**8 may** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi və Yeni Azərbaycan Partiyasının Yevlax rayon təşkilatının birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarıdır" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH, Saatlı Gənclər Evi sosial xidməti müəssisəsi və Saatlı RGİİ-nin birgə təşkilatçlığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98 illiyi münasibətilə; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Quba Regional Mərkəzi, QMİ-nin Quba bölgəsi üzrə qazılığı və Quba Dövlət Sosial İqtisadi Kollecinin birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Saatlı, Sabirabad, İmişli, Beyləqan rayonlarında fəaliyyət göstərən dini icma sədrləri, din xadimlərinin iştirakı ilə "Pandemiya şəraitində dini mərasim, ayin və tədbirlərin təşkili" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Neftçala rayonunda "Narkomaniya - ümumbəşəri bəla" mövzusunda və Salyan rayonunda "Vətənpərvərlik: milli və mənəvi dəyər kimi" mövzusunda;

**18 may** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Qax rayonunda "Gənclər arasında vətənpərvərlik, dövlətçilik, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət hisslərinin yüksək səviyyədə aşılanması" mövzusunda;

**19 may** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Nizami Gəncəvi yaradıcılığında humanizm ideyaları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, İmişli RGİİ və İmişli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda; DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Salyan rayonunda fəaliyyət göstərən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə "Pandemiya şəraitində dini mərasim, ayin və tədbirlərin təşkili" mövzusunda;

**20 may** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Gənclər arasında vətənpərvərlik, dövlətçilik, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən Rayon Təhsil Şöbəsi (RTŞ) və Balakən RGİİ-nin birgə təşkilatçılığı ilə "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Laçın RİH-in birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda;

**21 may** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı, Bərdə RGİİ-nin, Yeni Azərbaycan Partiyası Bərdə rayon təşkilatının iştirakı ilə "Məktəblilərin radikal dini düşüncələrdən qorunmasında təhsilin əhəmiyyəti" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı və Saatlı, Sabirabad, İmişli, Beyləqan rayonlarında fəaliyyət göstərən dini icma sədrləri, din xadimlərinin iştirakı ilə "Dini fanatizm, radikalizm və ekstremizmin mahiyyəti və təhlükələri" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Füzuli RİH-in birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda;

**24 may** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzi və Yardımlı RGİİ-nin birgə təşkilatçılığı ilə "Erkən nikah problemləri və ona qarşı mübarizə yolları" mövzusunda;

**25 may** – DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab şəhər Peşə Liseyinin birgə təşkilatçılığı ilə "Narkomaniyanın fiziki, mənəvi və sosial fəsadları" mövzusunda; DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Sabirabad RİH, Sabirabad RGİİ və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Radikal və ekstremist təmayüllü dini cərəyanların mahiyyəti və gənclərə psixoloji təsir üsulları" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsinin və Ağsu RGİİ-nin birgə təşkilatçılığı ilə "Yeniyetmə və gəncləri radikalizm və ekstremizm təhlükəsindən qoruyaq!" mövzusunda; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Ağdaş rayonunda "İnsan Hüquqları Aylığı" çərçivəsində "İnsanların inanc azadlığına hörmət hüquqi və mənəvi borcumuzdur" mövzusunda; DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Sənaye ve Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsili Mərkəzində karantin qaydalarına riayət etməklə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Siyəzən rayon Heydər Əliyev Mərkəzi və Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə "Ölməzliyin zirvəsində: Şəhidlik" mövzusunda; DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi, Ağdam RİH və Ağdam Sosial-İqtisad Kollecinin birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda;

**26 may** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi ADPU-nun Ağcabədi filialının birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Cəlilabad Regional Mərkəzi və Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji kollecin birgə təşkilatçılığı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Yardımlı RİH, Yardımlı RGİİ, Masallı Dövlət Regional Kolleci və Gənclərin İnkişaf və Karyera Mərkəzinin Yardımlı nümayəndəliyinin birgə təşkilatçılığı ilə 28 May – Respublika Günü münasibətilə; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə 28 May – Respublika Günü münasibətilə;

**27 may** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və "Saatlı Gənclər Evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə 28 May – Respublika Günü münasibətilə; DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsi, Yevlax ŞİH və YAP Yevlax rayon təşkilatının birgə təşkilatçılığı ilə 28 May – Respublika Günü münasibətilə; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Quba Regional Mərkəzi, QMİ-nin Quba bölgəsi üzrə qazılığı və ADPU-nun Quba filialının birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi yaradıcılığında humanizm ideyaları" mövzusunda baş tutub.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin, QMİ-nin səlahiyyətli nümayəndələrinin, həmçinin orta məktəb direktorları, müavinləri və psixoloqlarının, uşaq birliyi təşkilatları rəhbərlərinin və şagirdlərin iştirakı ilə keçirilən video-konfranslar zamanı bölgələrdəki dini durum müzakirə olunub, din xadimlərinin üzərinə düşən vəzifələr, cari dövrdə yas mərasimlərinə, kütləvi tədbirlərə qoyulan bəzi məhdudiyyətlər və digər ümumi məsələlərlə bağlı fikirlər səsləndirilib. Din xadimlərinin pandemiya dövründə, əsasən dəfn və yas mərasimlərində Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə əməl edilməsinin vacibliyi vurğulanıb.

Bildirilib ki, Dövlət Komitəsi xurafat, dini radikalizm və ekstremizmlə mübarizə, milli-mənəvi dəyərlərimizin təbliği, tolerant və multikultural ənənələrimizin təşviqi, həmçinin radikalizmə və fanatizmə qarşı mübarizə məqsədilə respublikanın bütün bölgələrində dini maarifləndirmə istiqamətində mütəmadi olaraq tədbirlər keçirir.

Çıxışlar zamanı gənc nəslin mənəvi dəyərlərə bağlılıq ruhunda yetişdirilməsinin vacibliyindən danışılıb. Bildirilib ki, məktəblilərin mənəvi cəhətdən yetişməsi üçün çoxsaylı tədbirlər keçirilməli, onlarla fərdi iş aparılmalıdır.

Tədbirlərdə ölkəmizdə mövcud olan nümunəvi dövlət-din münasibətləri haqqında ətraflı məlumat verilib, bu günün gənclərinin gələcək nəslin davamçıları olaraq dini radikalizm və dini ekstremizm barəsində məlumatlı olmasının vacibliyi vurğulanıb. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra milli-mənəvi və dini dəyərlərin dirçəldiyini qeyd edən natiqlər ölkəmizdə dövlət-din münasibətlərinin Ümummilli Lider tərəfindən çox böyük uzaqgörənliklə əsasının qoyulduğunu, bu gün bu münasibətlərin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini diqqətə çatdırıblar.

Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanlar qardaşlıq, dostluq və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Multikulturalizmin xalqımızın həyat tərzini təşkil etdiyini vurğulayan natiqlər məzhəbçilik və dini təəssübkeşlik meyillərinin multikultural cəmiyyət üçün yad olduğunu bildiriblər.

Onlayn tədbirlərdə, həmçinin cəmiyyətimizdə erkən nikahların yaratdığı mənəvi, sosial və hüquqi zərərlər haqqında danışılıb. Bu istiqamətdə bölgələrdə maarifləndirmə işlərinin daha intensiv aparılmasının vacibliyi, din xadimlərinin məsələyə həssas yanaşmalı olduğu və onların üzərinə müəyyən vəzifələrin düşdüyü nəzərə çatdırılıb. Vurğulanıb ki, bu gün dünyanın ən mühüm problemlərindən biri olan məişət zorakılığının qarşısının alınması üçün qanunvericilik və dövlət dəstəyi ilə yanaşı, cəmiyyət özü, xüsusilə vətəndaş cəmiyyəti zorakılıq hallarına adekvat reaksiya verməlidir.

Narkomaniyanın fəsadları və ölkəmizdə narkomaniyaya qarşı aparılan tədbirlərdən, zərərli vərdişlərə qarşı mübarizədə gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin əhəmiyyətindən, radikalizmin yaranma, yayılma və inkişaf səbəbləri, onunla mübarizə metodları, radikalizmdən qorunma üsullarından bəhs olunan video-konfranslar qarşılıqlı diskussiya şəklində baş tutub. Çıxış edənlər öz təkliflərini səsləndiriblər. Tədbirlərin sonunda isə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

CƏMİYYƏT və DİN
№ 05 (355) MAY 2021-ci il

## QEYRİ-KOMMERSİYA DİNİ QURUMLARININ DÖVLƏT REYESTR MƏLUMATLARI

**"Masallı rayonu Köçəkli kənd məscidi" dini icması**

**Qeydiyyat tarixi:** 14 yanvar 2010-cu il
**Qeydiyyat №-si:** 100110A1-164

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Qaraşov Ağamalı Salman oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qaraşov Taleh Ağamalı oğlu, Ağamirzəzadə Mirzəli Əfrahim oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 04 may 2021-ci il

**"Cəlilabad şəhəri "Şəhidlər" məscidi" dini icması**

**Qeydiyyat tarixi:** 19 fevral 2010-cu il
**Qeydiyyat №-si:** 100110A1-232

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Hüseynov Bəhrəm Rüstəm oğlu, Şahmarov Abbas Ataş oğlu, Salmanov Mirələm Qulam oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışlar. Əliyev Maşalla Şirinalı oğlu, Salmanov Rəhman Mirələm oğlu, Məmmədov Ənvər Əlipaşa oğlu, Məmmədli Əliəkbər Hüseyn oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 06 may 2021-ci il

**"Masallı şəhəri "Əbülfəzl" məscidi" dini icması**

**Qeydiyyat tarixi:** 09 oktyabr 2018-ci il
**Qeydiyyat №-si:** 100118C-823

Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Bağırov Ağabala Miri oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Cabbarov Seyran Qurban oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

Bağırov Ağabala Miri oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmışdır.

Qafarov Valeh Yusif oğlu dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 25 may 2021-ci il

## Bakı və Abşeron üzrə namaz vaxtları (İyun - 2021)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 03:29 | 05:13 | 12:38 | 17:49 | 20:21 | 21:40 |
| 2 | 03:29 | 05:12 | 12:38 | 17:49 | 20:21 | 21:41 |
| 3 | 03:28 | 05:12 | 12:39 | 17:50 | 20:22 | 21:42 |
| 4 | 03:27 | 05:12 | 12:39 | 17:50 | 20:23 | 21:43 |
| 5 | 03:27 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:44 |
| 6 | 03:26 | 05:11 | 12:39 | 17:51 | 20:24 | 21:45 |
| 7 | 03:25 | 05:11 | 12:39 | 17:52 | 20:25 | 21:46 |
| 8 | 03:25 | 05:10 | 12:40 | 17:52 | 20:25 | 21:46 |
| 9 | 03:24 | 05:10 | 12:40 | 17:52 | 20:26 | 21:47 |
| 10 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:48 |
| 11 | 03:24 | 05:10 | 12:40 | 17:53 | 20:27 | 21:49 |
| 12 | 03:23 | 05:10 | 12:40 | 17:53 | 20:28 | 21:49 |
| 13 | 03:23 | 05:10 | 12:40 | 17:54 | 20:28 | 21:50 |
| 14 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:50 |
| 15 | 03:23 | 05:10 | 12:41 | 17:54 | 20:29 | 21:51 |
| 16 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:29 | 21:51 |
| 17 | 03:23 | 05:10 | 12:41 | 17:55 | 20:30 | 21:52 |
| 18 | 03:23 | 05:10 | 12:42 | 17:55 | 20:30 | 21:52 |
| 19 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:30 | 21:53 |
| 20 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 21 | 03:23 | 05:10 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 22 | 03:23 | 05:11 | 12:42 | 17:56 | 20:31 | 21:53 |
| 23 | 03:23 | 05:11 | 12:43 | 17:56 | 20:31 | 21:53 |
| 24 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:31 | 21:53 |
| 25 | 03:24 | 05:11 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 26 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:54 |
| 27 | 03:25 | 05:12 | 12:43 | 17:57 | 20:32 | 21:53 |
| 28 | 03:25 | 05:12 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 29 | 03:26 | 05:13 | 12:44 | 17:57 | 20:32 | 21:53 |
| 30 | 03:27 | 05:13 | 12:44 | 17:57 | 20:31 | 21:53 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## PEW RESEARCH CENTER: ABŞ-DAKI YƏHUDİLƏR XRİSTİANLARDAN DAHA AZ DİNDARDIRLAR

"Pew" Araşdırma Mərkəzinin açıqlamasına əsasən, ABŞ-dakı yəhudilər xristianlardan, ümumiyyətlə, amerikalılardan ənənəvi göstəricilərə görə daha az dindardırlar. Mərkəzin yeni araşdırmasına görə, yəhudi dini həyatı və mədəniyyətinin bir sıra aspektləri, məsələn, Pasxa süfrəsi (sedera), bar mitsva və bat mitsva kimi yəhudilərin ənənəvi qidaları Amerika yəhudiləri arasında geniş yayılmışdır. Ancaq digər dini təzahürlər, hər şeydən əvvəl də sinaqoqdakı ibadətlərdə müntəzəm iştirak etmək daha az yaygındır.

Məsələn, ABŞ-da yaşayan ümumi əhalinin 27%-i və xristianların 38%-i ilə müqayisədə yəhudilərin 12%-i dini ayinlərə hər həftə qatıldıqlarını söyləyirlər. Həmçinin amerikalıların 41%-i və xristianların 57%-i ilə müqayisədə, yəhudilərin 21%-i dinin həyatlarında çox vacib rol oynadığına inanırlar.

Ancaq bütün ABŞ yəhudilərinin 9%-ini təşkil edən "ortodoksol" yəhudilər istisnadır. Məsələn, "ortodoksol" yəhudilərin 86%-i dinin həyatlarında çox vacib amil olduğunu söyləyirlər. Bu göstəricilərə görə onlar Amerika cəmiyyətindəki ən dindar qruplar arasındadırlar.

Sorğunun nəticələrini təhlil edən "Pew" Araşdırma Mərkəzi respondentlər arasında iki qrup müəyyənləşdirib: 1) dinlərinin yəhudi dini olduğunu iddia edənlər (onlara "dinlərinə görə yəhudilər" deyilir) və 2) dini baxımdan özlərini ateist, aqnostik adlandıranlar, yaxud konkret bir dinə mənsub olmadıqlarını söyləyənlər, lakin yəhudi valideynləri olan və ya yəhudilər tərəfindən böyüdülənlənlər. Onlar özlərini dini cəhətdən deyil, mədəni, etnik və ya ailə baxımından yəhudi hesab edirlər (onlara "dinsiz yəhudilər" deyilir). Bu bölünməyə əsasən, ABŞ yəhudilərinin 73%-i "dinlərinə görə yəhudi", 27%-i isə "dinsiz yəhudilər"dir.

ABŞ yəhudilərinin bütövlükdə amerikalılardan daha az dindar olması faktı yəhudi kimliklərinin onlar üçün əhəmiyyətsiz olduğu anlamına gəlmir.

## FRANSADA HƏR İKİ HƏFTƏDƏ BİR DİNİ TİKİLİ "YOXA ÇIXIR"

"National Catholic Register"-in verdiyi xəbərə görə, Fransada hər iki həftədə bir hansısa dini tikili "yoxa çıxır". Bu qənaətə Parisdəki "Dini İrs Rəsədxanası"nın prezidenti Eduard de Lamaze gəlib. O, ölkədəki dini binaların tədricən yoxa çıxması ilə bağlı fransız mediasında həyəcan təbili çalır.

Lamaze bu mövzuda xəbərdarlıq çağırışını Fransanın şimalındakı Romili-la-Puteney kommunasında yerləşən XVI əsrə aid Sent-Pyer kilsəsinin yanğın nəticəsində məhv olmasından sonra edib. Rəsmi məlumata əsasən, yanğın hadisəsinin təsadüfən baş verdiyi hesab edilən Parisdəki Notr-Dam Kafedralının yanmasından düz iki il sonra - 15 aprel 2021-ci ildə meydana gəlib.

"Hələ 1970-ci illərin əvvəllərində yazıçı və jurnalist Mişel de Sent-Pyer "Xarabalıqdakı kilsələr: kilsələr yox olmaq təhlükəsi ilə üzbəüz" adlı kitabında artıq həyəcan təbili çalmağa başlamışdı. Ancaq o vaxtdan bəri vəziyyət on dəfə, hətta yüz dəfə pisləşib", - deyə Lamaze vurğulayıb.

Hazırda Fransadakı 5000 katolik binası yoxa çıxmaq təhlükəsi ilə üz-üzədir. İşlərin bu vəziyyətə gəlib çatması qismən də Fransadakı dini binaların 1905-ci ildə kilsənin dövlətdən ayrılmasına dair Qanuna uyğun olaraq bələdiyyələrin hesabına keçməsi ilə əlaqədardır. Bir çox hallarda, onlar təmir xərclərini ödəyə bilmirlər.

"Əslində, dini baxımdan başqa, burada həm də ölkəmizin mədəniyyəti risk altındadır. Çünki bu incəsənət və memarlıq inciləri Fransa ruhunun və əzəmətinin ayrılmaz tərkib hissəsidir. Və belə davam etsək, bir gün irsimiz tamamilə məhv olacaq. Hər şeyimizi itirəcəyik", - deyə Eduard de Lamaze açıqlama verib.

### Yadigar söz

**M.Ə.Rəsulzadə**

*Ey gənclik! Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min müşkülatla ucaldaraq dedi ki: "Bir kərə yüksələn bayraq bir daha enməz!"*

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Universal Poliqraf" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi: 2894